

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 41 (24.423)

12 oktyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# O hər bir azərbaycanlının Prezidentidir



## Prezident İlham ƏLİYEV:

*“Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm...”*

Həmin günləri Azərbaycan xalqı çox yaxşı xatırlayır. Çünki həmin vaxtlarda müasir Azərbaycanı bizə bəxş edən bir dahinin canından çox sevdiyi Vətəninin sakinlərinə dediyi, bəlkə də, son sözləri eşidirdik. Tarix 2003-cü il 1 oktyabr. Vətən oğlu öz doğma xalqına müraciətində deyirdi: ***“Üzümü Sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram... Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”.*** Həmin gün dövləti, Vətənini sevən hər bir kəs ona işıqlı gələcəyi vəd etdiyindən əmin idi dahi rəhbərin. Çünki O, canından çox sevdiyi Azərbaycanı gələcəyinə əmin olduğu bir insana əmanət etmişdi. Xalqını İlham Əliyevə, Onu isə xalqına əmanət etmişdi. Həmin gündən xalq Vətən oğlunu bağrına basıb onunla bir olub zəfər yolunu ilmə-ilmə toxudu. 2003-cü ilin 15 oktyabr seçkilərində qazanılan qələbə xalqın öz taleyini hər zaman qəlbən inandığı, sınaqdan çıxardığı siyasi qüvvəyə etibar etdiyini bir daha təsdiqləmişdi.

Səhifə ➡ 2




# O hər bir azərbaycanlının Prezidentidir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Prezidenti seçilən İlham Əliyev ilk dəfə ay-ulduzlu, üçrəngli Azərbaycan Bayrağının önündə diz çöküb Vətənə sədaqətlə xidmət edəcəyinə and içəndə elə həmin gün söz vermişdi bu bayrağı Şuşada, Xocalıda ucaldacağına. Bu söz 200 ildən çoxdur ki, torpaqları hissə-hissə qoparılıb düşmənə pay verilən, körpələri dünyaya göz açmamış ana bətnində buz heykələ dönən xalqa, məzarsız oğullarının həsrəti ilə ürəyi yanan analara, yurdundan didərgin düşən insanlara, şəhidlərə, Azərbaycanı canından çox sevən Ataya verilən söz idi. Qarabağ kimi çətin bir dərdi olan, müstəqilliyin dadını təzə-təzə alan, özünü dünyaya tanıdıb haqq səsini duyurmağa çalışan bir dövlətin Prezidenti olmaq və Ulu Öndərin vəsiyyətini yerinə yetirmək kimi ağır bir yükü almışdı çiyinlərinə 42 yaşlı siyasətçi. Vətənə, doğma xalqına ləyaqətlə, sədaqətlə xidmət edəcəyinə and içəndə o da yaxşı bilirdi, ədalətsiz bir dünyada yaşadığımızı. Güclünü haqlı görən bir dünyada. Lakin O, qətiyyətli və ümidli idi. İnanırdı ki, bu xalqla ən çətin yolları, keçilməz dərələri aşmaq mümkündür.

Tarix öz sözünü dedi və zaman Ulu Öndərin bütün bəlalardan xilas edib ayağa qaldırdığı Azərbaycanı əmin əllərə əmanət etdiyini sübuta yetirdi. Dahi siyasətçinin layiqli davamçısı dünyada söz sahibindən Müzəffər Sərkərdəliyə gedən uzun bir yol qət etdi. Bu yol Heydər yolu, Ata vəsiyyətinin yerinə yetirilməsinə gedən yol idi. Çətin keçilməz sədləri birləşərək, bir olaraq aşdıq. Ölkə başçısı dünya səviyyəli tədbirlərdə dəfələrlə qarşı tərəfə tarix dərsi keçib qəti mövqeyini açıq şəkildə bəyan edirdi: ***"Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir".*** Verdiyi hər bir sözə sadiqlik göstərən ölkə başçısı Ulu Öndərin siyasi kursunu davam etdirib Azərbaycanı dünyaya tanıtdı və söz sahibinə çevirdi. Ölkə başçısının uzaqgörənliyi, mahir siyasətçi olması sayəsində Qafqazın ən güclü dövləti mövqeyinə gəldik.

> ## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:
>
> "İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.
>
> 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır."

2003-cü ilin 15 oktyabr seçkilərindən sonrakı beşilliyin nailiyyətlərini gündəlik həyatında hiss edən, ölkəmizin əldə etdiyi inanılmaz nəticələrlə qürur duyan xalqın "Niyə məhz İlham Əliyevə səs verməliyik?" sualına cavabı da qəti və birmənalı oldu: 2008-ci ilin 15 oktyabr seçkilərində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsi də ölkədəki möhkəm ictimai-siyasi sabitliklə, dinamik iqtisadi inkişafla, demokratikləşmə xəttinin dönməzliyi ilə şərtlənmişdir. Ümummilli Liderin yüksək etimadını doğruldan İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycanı dünyaya tanıtdı. Əslində, biz 44 günlük Vətən müharibəsindən əvvəl də ölkə başçısının məhz bu yöndən qazandırdığı qələbənin şahidi olduq. Xarici əlaqələri genişləndirən ölkə başçısı bir-birinin ardınca müxtəlif beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinə nail olmaqla Azərbaycanın mədəni, güvənilən, etibarlı, böyük layihələr keçirməyə qadir olan bir ölkə olduğunu göstərdi və bununla da tərəfkeşlərimizin sayını artırdı. Dahi rəhbərin layiqli davamçısının müdrik rəhbərliyi ilə görülən işləri dünyada yaşayan soydaşlarımız da dərk edir, sülhün və əmin-amanlığın hökm sürdüyü məkana çevrilmiş qüdrətlənən Azərbaycan dövləti ilə fəxr hissi duyurdular. Azərbaycan dövlətinin sərhədləri daxilində yaşayan insanlar gündən-günə inkişaf edən ölkənin vətəndaşları olaraq gələcəyə ümidlə baxır, verdiyi hər sözü yerinə yetirən ölkə başçısına sədaqət nümayiş etdirirdilər.

Elə məhz bunun nəticəsidir ki, bu ilə kimi keçirilən prezident seçkilərində xalqın seçimi, layiqli namizəd İlham Əliyev oldu. Seçkilərdə səs çoxluğunun illər keçdikcə artması isə onu bir daha sübuta yetirdi ki, xalqın səsi hər bir azərbaycanlının Prezidenti, Ulu Öndərin layiqli davamçısıdır. Diqqət etsək, görürük ki, 2003-cü ildə prezident seçkilərində cənab İlham Əliyev 70 faiz səs çoxluğu ilə ölkə başçısı seçilmişdisə, ondan sonrakı seçkilərdə bu rəqəm artmış və bu ilin əvvəlində keçirilən seçkilərdə O, 92,12 faiz səs çoxluğu ilə Zəfər seçkisinin qalib Sərkərdəsi olmaq şərəfinə nail olmuşdur. Bu bir xalqın təkcə öz Prezidentinə yox, həm də Azərbaycanı canından çox sevən Ümummilli Liderinə sədaqəti idi.

Bu gün həmin tarixdən 21 il ötür, hər ili bir əsrə bərabər 21 il. Təbii ki, bu illərdə qazanılan nailiyyətlər nə məqalələrə, nə də ki, kitablara sığar. Bu 21 ildə Xəzərdən Avropaya uzanan neft, qaz kəmərlərinin çəkilişinə, Azərbaycanın dünya səviyyəli tədbirlər məkanına çevrilməsinə, himnimizin olimpiya oyunlarında səslənməsinə, Vətənimizin türk dövlətləri birliyinə qapı açmasına, düşmənin xarabaya çevirdiyi Şuşa məscidindən azan səsinin ucalmasına, Xankəndidə düşmən tabutuna son mismarın vurulmasına, Böyük Qayıdışa şahid olduq biz.

*Və 44 günlük Vətən müharibəsindəki parlaq qələbəmiz nəinki dünya dövlətlərinin, türk xalqlarının, eləcə də dünyanın müxtəlif yerlərində yaşayan 50 milyondan çox soydaşımızın Ali Baş Komandana inamını, ümidini, güvənini artırdı. Artıq dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı fəxr duyur ki, onun Azərbaycan adlı qalib bir dövləti, Şuşada, Laçında, bütöv Azərbaycanın başı üstə məğrurluqla dalğalanan bir bayrağı, Vətəni üçün keçilməz sədləri aşıb ona can qurban edən igid oğulları və hər bir azərbaycanlının Prezidenti olmağı bacaran Müzəffər Sərkərdəsi var...*

**Ramiyə ƏKBƏROVA**

# “Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik!”

***Azərbaycanın son dörd ildə daxili siyasətinin prioritet istiqamətləri sırasında Qarabağın, Şərqi Zəngəzurun bərpası, soydaşlarımızın azad olunan torpaqlara rahat, təhlükəsiz köçürülməsi yer alıb ki, bu qısa zaman kəsiyində reallaşdırılan irimiqyaslı layihələr, uğurlu məskunlaşma prosesi vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Bu baxımdan Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın əzəli torpaqlarımıza hər səfəri “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına yeni bir töhfə kimi tarixə düşür. Ötən həftə, daha dəqiq desək, oktyabrın 3-4-də növbəti səfər də olduqca önəmli, əhəmiyyətli addımların atılması ilə yadda qaldı...***



Ölkə Prezidentinin rəhbərliyi ilə hazırlanan, icrası uğurla aparılan Böyük Qayıdış proqramı çoxşaxəliliyi, universallığı ilə diqqəti çəkir, ilbəil əhatə dairəsini genişləndirməklə əhəmiyyətini daha da artırır. Proqrama uyğun bütün işlər zəncirvari, paralel, mərhələli şəkildə reallaşdırılır, yəni soydaşlarımızın rahat yaşaması üçün mənzil-məişət şəraiti yaradılır, bununla yanaşı, gələcəyimiz olan uşaqların təhsil-tərbiyə məsələsi diqqətdə saxlanılır, eyni zamanda da köç edən insanların iş, istirahət imkanları təmin olunur. Bundan başqa, bölgələrin, maddi sərvətlərin əvvəlki şöhrəti də özünə qaytarılır, tarixi ənənələr, milli-mənəvi dəyərlər bərpa edilir, turizm potensialı gücləndirilir, ən əsası isə Prezidentin Qarabağın, Şərqi Zəngəzurun “yaşıl enerji zonası”na çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr uğurla icra olunur. Ötən həftə dövlət başçısı və birinci xanımın Cəbrayıl və Zəngilan rayonlarına səfəri müddətində açılışı olan, təməli qoyulan yaşayış komplekslərinin, müəssisələrin, elektrik stansiyalarının timsalında məhz yuxarıda sadalanan istiqamətlər üzrə töhfələr bariz şəkildə diqqəti çəkdi. Belə ki, Zəngilan şəhərində 334 mənzilin inşasının nəzərdə tutulduğu beşinci, 77 mənzilin olması planlaşdırılan altıncı yaşayış, Zəngilan İstirahət komplekslərinin, eləcə də ümumi ərazisi 248 hektar olan, 3470 nəfərin (867 ailə) yaşaya biləcəyi Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin tikintisi məskunlaşma siyasətinin icrasının uğur göstəriciləridir. Eyni zamanda Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına tam orta məktəbin binasının açılışı ilə bölgədə mövcud olan köklü təhsil ənənələri də müasir müstəvidə bərpa olundu. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir, təhsil müəssisəsinin həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

Gələcəkdə Cəbrayılda “Azərsun Holdinq” MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, “Hicaz quşçuluq” müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin istifadəyə verilməsi rayonda əhalinin məşğulluğunu təmin etməklə yanaşı, bölgənin sosial-iqtisadi inkişafına da əhəmiyyətli təsir göstərəcək. Şərqi Zəngəzurun iqtisadiyyatının şaxələndirilməsindən danışan zaman bu xüsusda sənaye parklarının yaradılmasını da səmərəsi mühüm addım kimi dəyərləndirmək olar. Hazırda ölkə üzrə 8 rayonu əhatə edən “Araz Vadisi İqtisadi Zonası” Sənaye parkları fəaliyyət göstərir ki, onlardan ikisi işğaldan azad olunan Ağdam, Cəbrayıl rayonlarında yerləşir. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, Cəbrayıl rayonunun Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması da məhz həmin məqsədə xidmət edir. Prezident cənab İlham Əliyevin oktyabrın 3-də Cəbrayıl rayonuna səfəri bu baxımdan da növbəti mühüm addımların atılması ilə nəticələndi. Belə ki, səfər çərçivəsində parkda “Dominari” şirkətinin mebel klasterinin, “Karabakh Stone” və “Prestij-Kimya” MMC-lərə məxsus zavodların təməli qoyuldu. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan, ilkin mərhələdə 650 nəfəri işlə təmin edəcək klasterdə ildə 6 min ton elastik poliuretan, 250 min ədəd müxtəlif mebel, həmçinin döşəklər, divanlar və çarpayılar üçün 1 milyon ədəd üzlük, 200 min döşək, 5,5 min kubmetr mebel komponentləri istehsal olunacaq. Həmin məhsulların daxili bazarda satılması ilə yanaşı, ixracı da həyata keçiriləcək. “Karabakh Stone” MMC-nin zavodu yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq. Türkiyə texnologiyasının tətbiqi əsasında müəssisənin 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılır. Çinin, Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək “Prestij-Kimya” MMC-nin zavodunda isə il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsal olunması nəzərdə tutulur.



Prezidentin və birinci xanımın ötən həftə Şərqi Zəngəzura səfəri həm də bölgənin “yaşıl enerji zonası”na çevrilməsi istiqamətində atılan növbəti addımla yadda qaldı. Belə ki, Zəngilan rayonunda “AzərEnerji” ASC-nin “Yaşıl Enerji Zonası” Konsepsiyasına uyğun olaraq tikilən “Sarıqışlaq” Su Elektrik Stansiyası istifadəyə verildi. Stansiyada eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib. Xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi Oxçuçayın məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib, borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin edilib ki, bu da flora və faunanın qorunmasında önəmli məsələdir. Qeyd edək ki, “Sarıqışlaq” SES Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES – “Cahangirbəyli”, “Şayıflı” və “Zəngilan” Su Elektrik stansiyaları dövlət başçısının iştirakı ilə artıq istismara verilib. Şərqi Zəngəzurun və Qarabağın “yaşıl enerji zonası”na çevrilməsi prosesi barədə onu da xüsusi vurğulamaq lazımdır ki, bu günədək həmin ərazilərdə istismara verilən 270 meqavat gücündə 32 Su Elektrik Stansiyasında hava şəraitindən asılı olan digər bərpa olunan enerji mənbələrindən fərqli olaraq 24 saat fasiləsiz “yaşıl enerji” istehsal edilir.

Prezident və birinci xanımın növbəti səfəri həm də 2020-ci ildə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun şücaətinin ilk böyük rəmzi sayılan Cəbrayıl rayonunun azad olunma tarixi ilə əlamətdar idi. Digər rayonların azad edildiyi tarixlər kimi, Cəbrayıl şəhəri gününü də ölkə başçısı və Birinci vitse-prezident öz doğma yurdlarına qayıdan soydaşlarımızla birgə qeyd etdilər, rayonda yaşayış kompleksinin açılışı oldu, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarları təqdim edildi. Soydaşlarımız önündə çıxış edən Müzəffər Ali Baş Komandan ordumuzun tarixi zəfərini, Böyük Qayıdış proseslərini bir daha ətraflı şərh etdi, beynəlxalq ictimaiyyətin diqqətini əsas məsələyə – erməni vandalizminə çəkməklə Azərbaycan dövlətinin iradəsinin qəti, dönməz olduğunu vurğuladı, atılan mütərəqqi addımlara kölgə salmağa çalışan qüvvələrə tutarlı mesaj ünvanladı: ***“Bu dağıntılar, təbii ki, bir müddətdən sonra söküləcək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır. Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil. Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik!”***

**Nail ƏSGƏROV**





# Ali Məclis sədrinin birinci müavini Ordubad şəhərində seçicilərilə görüşüb

Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Ordubad rayonuna gəlib.

Əvvəlcə rayon mərkəzində Ümummilli Liderimiz Heydər Əliyevin abidəsini, Şəhidlər xiyabanında Vətən oğullarının məzarlarını ziyarət edib, önünə gül dəstələri düzüb.

Ali Məclis sədrinin birinci müavini Ordubad şəhərindəki zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada Vətən müharibəsi qazisi və Çernobıl əlili üçün nəzərdə tutulan ikiotaqlı mənzillərdə, XVII əsrə aid Cümə məscidində və "Sahil" mehmanxanasının ərazisində aparılan işlərlə tanış olub.







Sonra Bəxtiyar Məmmədov rayon mərkəzindəki Rabitə evində seçicilərilə görüşüb.

Görüşdə vətəndaşların problemləri dinlənilib, onları narahat edən məsələlərin həlli yollarına dair təkliflər səsləndirilib, fikir mübadiləsi aparılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda sərgi-satış yarmarkası keçirilir

Oktyabrın 10-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar məhdud fiziki imkanlı və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış yarmarkasının açılış tədbiri olub. Sərgi-satış yarmarkasının keçirilməsində məqsəd xalqımızın ailə dəyərlərinin qorunub saxlanılması, adət-ənənələrinin yaşadılması, milli və xalq tətbiqi sənət nümunələrinin təbliğ edilməsi, həmçinin qadınların







özünüməşğulluqlarının təmin edilməsi və istedadlarının üzə çıxarılmasıdır.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva bildirib ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının, təqribən, yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət qadın siyasəti bu gün də uğurla davam etdirilir. Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur. Dövlət proqramları çərçivəsində görüləcək işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradacaqdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi muxtar respublikada iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi üçün daha güclü zəmin yaradacaqdır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Musa Məmmədov əhalinin sosial rifahının yüksəldilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması və cəmiyyətdə sosial bərabərliyin təmin edilməsi məqsədilə həyata keçirilən dövlət siyasətindən danışıb. Musa Məmmədov sərgi-satış yarmarkasının məhdud fiziki imkanlı şəxslərin, istedadlı qadınların əl işlərini və yaradıcılıqlarını geniş ictimaiyyətə tanıtmaq, onların cəmiyyətin ayrılmaz bir hissəsi olduğunu bir daha nümayiş etdirmək üçün gözəl bir fürsət olduğunu deyib, bu tədbirin həm yaradıcılığı, həm də sosial inklüzivliyi dəstəkləyən bir platforma olduğunu diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin əməkdaşı Həsən Kərimov bildirib ki, dövlət siyasətinin prioritet istiqamətlərindən biri də vətəndaşlara sosial qayğının, təminat və dəstəyin göstərilməsidir. Bütün bu tədbirlər qədim diyarımızda müxtəlif sənətkarlıq sahələrinin, milli-mənəvi dəyərlərimizin yaşadılmasına, gənc nəslin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına göstərilən qayğının davamlı xarakter daşıdığını göstərir.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Bağırzadə bildirib ki, həyata keçirilən uğurlu sosial siyasət muxtar respublika sakinlərinin həyat səviyyəsinin yaxşılaşmasına, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara, o cümlədən əlilliyi olan şəxslərə və ahıllara göstərilən dövlət qayğısının günbəgün artmasına səbəb olub. Bildirilib ki, rəsm və əl işlərinin ictimai nümayişi üçün nəzərdə tutulan bugünkü layihənin həyata keçirilməsi istedadlı məhdud fiziki imkanlıların və ahılların cəmiyyətə inteqrasiyası üçün böyük perspektivlər açmaqla bərabər onların yaradıcılıq əzmini də artırır. Bugünkü sərgidə iştirak edən müəlliflər sırasında sağlamlıq imkanları məhdud şəxslərlə yanaşı, ahıl vətəndaşlar, özünüməşğulluq proqramına cəlb edilmiş şəxslər də yer alır. Sərgidə 91 müəllifin 1912 adda əl işi nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınların rolunu daha da artırıb. Muxtar respublikada həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün qadınlar müxtəlif dövlət orqanlarında çalışır, bölgənin ictimai həyatında fəallıq göstərir və onların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir. Dövlətimizin qadın siyasəti qadınların cəmiyyətdəki rolunu artırmaq, onların hüquqlarını qorumaq və gender bərabərliyini təmin etmək məqsədini güdür. Bu siyasət, qadınların iqtisadi, sosial, siyasi və mədəni həyatda fəal iştirakını təşviq edir. Ramilə Seyidova vurğulayıb ki, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair Tədbirlər Planı"nda nəzərdə tutulan "Məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi və satış yarmarkasının keçirilməsi" bəndinə müvafiq olaraq bugünkü tədbir keçirilir. İl ərzində bu istiqamətdə baş tutan 5-ci tədbirdir. Artıq 15 ildir ki, keçirilən sərgi-satış yarmarkasında əvvəlki illərlə müqayisədə bu il iştirakçı qadınların sayı yüzlərləni, əl işlərinin sayı isə minlərləni ötüb. Oktyabrın 17-dək davam edəcək sərgidə, ümumilikdə, 447 müəllifin 10929 adda əl işi təqdim edilir. Bu da ötən illə müqayisədə 16 müəllif, 142 əl işi çox deməkdir. Əl işləri arasında tullantılardan hazırlananları da diqqət çəkir. Tullantılardan hazırlanan əl işləri həm də ekologiya ilə bağlı şüurun artırılması üçün gözəl bir vasitədir. Bu da qadınlarımızın COP29 "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən tədbirlərə verdiyi töhfə ilə yanaşı, ekosistemin qorunmasında fəal olduqlarını əyani şəkildə göstərir. Komitə sədri qadınlara göstərilən diqqətə və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva yaradıcı və istedadlı qadınlar üçün yaradılan şəraitdən danışaraq bildirib ki, gender bərabərliyinin təmin edilməsi üçün qəbul olunan qanunvericilik aktları qadınların iş dünyasında və yaradıcı sahələrdə uğur qazanmalarına yönəlib. Ümumiyyətlə, yaradıcı qadınlar üçün şəraitin yaxşılaşdırılması qadınların iqtisadiyyatda, mədəniyyətdə və cəmiyyətdə daha fəal iştirakını təmin etmək məqsədi daşıyır. Bu istiqamətdə atılan addımlar qadınların daha da böyük uğurlar əldə etməsinə kömək edir.

İstedadlı qadın Xuraman Səfərova ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edərək bildirib ki, bu cür platformalar qadınlara öz işlərini başqaları ilə bölüşmək, təcrübə mübadiləsi aparmaq və kollektiv layihələrdə iştirak etmək imkanı verir. Bütün bunlar da yaradıcı qadınlara yeni imkanlar açır və onların peşəkar inkişafına kömək edir.

Sonra sərgi-satışa baxış olub.

Sərgi-satış oktyabrın 17-dək davam edəcək.

# Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin 4 məzunu Prezident təqaüdünə layiq görülüb




Ölkə Prezidenti cənab İlham Əliyev "2024-2025-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" Sərəncam imzalayıb.

Prezident təqaüdünə layiq görülənlərdən 4-ü Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunlarıdır. Belə ki, Culfa şəhər 3 nömrəli tam orta məktəbin məzunu İsmayıllı Kənan Mehman oğlu, Ordubad rayon Gənzə kənd tam orta məktəbinin məzunu Rzayev Yaqub Aqil oğlu, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin məzunu Əbilov Ziya Namiq oğlu və Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin məzunu Qənbərova İnci Rauf qızı Prezident təqaüdünə layiq görülüb.

# Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yaradılmasının 104 illiyi qeyd olunub



Oktyabrın 10-da Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yaradılmasının 104 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov Maliyyə Nazirliyinin tarixi haqqında danışıb. O bildirib ki, Naxçıvan İnqilab Komitəsinin 1920-ci il oktyabrın 10-da qəbul etdiyi qərarla yaradılan Maliyyə Şöbəsi 1924-cü ilə qədər həmin ad altında fəaliyyət göstərib. Daha sonra müxtəlif adlarla fəaliyyətini davam etdirən qurum Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2001-ci il mayın 1-də imzaladığı Fərmanla Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi adlandırılıb.

Nazir vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi muxtar respublikada maliyyə, büdcə və vergi sahəsində dövlət siyasətini hazırlayır və həyata keçirir. Eyni zamanda dövlət və icmal büdcələrinin layihələrinin mövcud qanunvericiliyə uyğun olaraq hazırlanmasını və büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir.

Sonda Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yaradılmasının 104 illiyi münasibətilə maliyyə işçilərini təbrik edən Həsən İsmayılov bu müddətdə fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin bütün əməkdaşlarının hazırda yaradılmış şəraitdən səmərəli istifadə edərək fəaliyyət istiqamətləri üzrə vəzifə öhdəliklərini bundan sonra da vicdanla icra edəcəyinə əminliyini vurğulayıb.

Tədbirdə nazir müavini Elvin Əlimərdanov çıxış edərək Maliyyə Nazirliyinin keçdiyi yolu və kollektivin əhəmiyyətli töhfələrini qeyd edib. O, nazirliyin əməkdaşlarını bu əlamətdar gün münasibətilə təbrik edib.

Tədbir nazirlik əməkdaşlarının təbrik nitqləri ilə başa çatıb.

# Naxçıvanda ilk dəfə toxum sərgi-satış yarmarkası keçirilib





Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Xidmətlər Agentliyinin (AXA), Aqrar İnnovasiya Mərkəzinin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda ilk dəfə toxum sərgi-satış yarmarkası keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin, Aqrar İnnovasiya Mərkəzinin əməkdaşları, elmi-tədqiqat institutlarının, özəl toxumçuluq təsərrüfatlarının nümayəndələri və fermerlər iştirak edib.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsini müvəqqəti icra edən, nazir müavini  Xəyalə Dadaşova çıxış edərək muxtar respublikada aqrar sahədə əldə olunmuş nailiyyətlər, toxumçuluğun mövcud vəziyyəti barədə ətraflı məlumat verib, sərgi-satış yarmarkasının fermerlər üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib. Nazir müavini "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da toxumçuluğun inkişafının qarşıya qoyulan əsas hədəflərdən biri olduğunu və bu istiqamətdə işlərin davam etdiyini diqqətə çatdırıb.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Əhməd Vəliyev Azərbaycan Respublikası Prezidenti tərəfindən aqrar sahəyə göstərilən diqqət və qayğıdan danışıb.

Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev ölkədə toxumçuluq sahəsinin mövcud vəziyyəti və qarşıda duran hədəflər barədə məlumat verərək bildirib ki, toxumçuluq kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən biridir. Bol və keyfiyyətli məhsulun əsası toxumçuluğun düzgün təşkil olunmasından asılıdır. Bu məqsədlə də hər il ənənəvi olaraq respublikamızın müxtəlif regionlarında keçirilən toxum sərgi-satış yarmarkaları toxumçuluğun daha da inkişafına xidmət edir. Yarmarkaların müxtəlif regionlarda keçirilməsində əsas məqsəd toxum bazarının formalaşması, işgüzar və səmərəli görüşlərin keçirilməsi, bu sahədə yeni innovativ texnologiyaların tətbiqini təşviq etmək, fermerlər üçün torpaq-iqlim şəraitinə uyğun sertifikatlı toxumlara əlçatanlığın təmin olunmasıdır. Eyni zamanda bu tədbirlər fermerlərə bu sahədə olan yeniliklərlə tanış olmaq, istehsalçılarla birbaşa əlaqə qurmaq, təcrübə mübadiləsi aparmaq imkanları yaradır.

Sərdar Hacıyev Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq toxum sərgi-satış yarmarkasının keçirilməsinin bölgədə toxumçuluğun inkişafına, eyni zamanda Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Aqrar Xidmətlər Agentliyi arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcəyini bildirib.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov respublikanın müxtəlif bölgələrində keçirilən toxum sərgi-satış yarmarkalarının əhəmiyyəti barədə ətraflı məlumat verərək yarmarkalara fermerlərin böyük maraq göstərdiyini bildirib. Qeyd edib ki, növbəti illərdə muxtar respublikanın digər bölgələrində də toxum sərgi-satış yarmarkalarının keçirilməsi nəzərdə tutulub.

Yarmarkada Aqrar Xidmətlər Agentliyi tərəfindən göstərilən xidmətlər təqdim olunub, eləcə də  özəl toxumçuluq təsərrüfatlarında istehsal olunan sertifikatlı toxumlar nümayiş etdirilib.

Toxum sərgi-satış yarmarkası çərçivəsində dəyirmi masa keçirilib, toxumçuluğun mövcud vəziyyəti və problemləri müzakirə olunub, təkliflər qeydə alınıb.

Fermerlərə Agentliyin əməkdaşları tərəfindən "Zərərli orqanizmlərə qarşı inteqrir mübarizə üsulu və tətbiqi", "Sertifikatlı toxumdan istifadənin əhəmiyyəti", "Müasir iqlim dəyişiklikləri şəraitində heyvan sağlamlığına təhdidlər" mövzularında təlimlər keçirilib. Həmçinin toxumçuluğun mövcud vəziyyəti və gələcək qarşılıqlı əməkdaşlıq əlaqələri müzakirə olunub.

Qeyd edək ki, sərgi-satış yarmarkasında, ümumilikdə, 200-ə yaxın fermer iştirak edib.

Şərur rayonunda da toxum sərgi-satış yarmarkası olub.

# ABŞ-nin antiazərbaycan siyasəti – Qafqaza yiyələnmək arzusu, çirkin siyasi oyunlar



✍ Nail ƏSGƏROV

Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində müzəffər Ordumuzun 30 il işğal altında saxlanılan torpaqları azadlığa çıxarması və ötən il həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra regionda geosiyasi vəziyyət tamamilə dəyişib. Separatizmin Qarabağdan kökünün kəsilməsi bir sıra Qərb ölkələrini, o cümlədən Qafqaza yiyələnmək arzusu ilə yaşayan, əvvəllər qismən altdan-altdan iş tutan ABŞ-ı indi açıq-aşkar müxtəlif çirkin siyasi oyunlara əl atmağa vadar edib. Başqa sözlə, Azərbaycanın son 4 ildə regionda artan nüfuzu, bir sıra ölkələrlə qurduğu böyük perspektivlər vəd edən əhəmiyyətli əməkdaşlıq əlaqələri okeanın o tayından bu tayına ağalıq etməyə çalışan qüvvələri möhkəmcə təşvişə salıb...

Məlum olduğu üzrə Amerika Birləşmiş Ştatlarının bir qrup konqresmeni ötən həftə, daha dəqiq desək, oktyabrın 3-də bu ölkənin dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz, iftiraatıcı mövqe nümayiş etdirdi. Amerika Erməniləri Milli Komitəsinin (ANCA) çətiri altında yaxşıca daldalanan, öz bizneslərini yaradan həmin 60 siyasi şəxsin çirkin kampaniyanı məhz Azərbaycanın COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etdiyi zamanda həyata keçirmələri heç də təsadüfi deyil. Bütün dünyanın diqqətinin Cənubi Qafqazın liderində olacağını düşünərək bundan sui-istifadə etməyə çalışan qüvvələrə ən müfəssəl cavab isə yenə Ali Baş Komandandan gəldi. Bu cavabın vaxtilə erməni vandalizminin ən dəhşətli mənzərəsinin əyani göstəricisinə çevrilən, indi isə Böyük Qayıdışın ayaq səslərinin gəldiyi Cəbrayıl rayonundan verilməsi beynəlxalq ictimaiyyətin diqqətini məsələnin əsl mahiyyətinə yönəltməkdə ən effektiv addım oldu. Eyni zamanda ölkə başçısı çıxışında bu çirkin siyasi oyunun pərdəarxası mənzərəsini, əsl simasını da tam, qəti şəkildə ortaya çıxardı. Sitat: ***"Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün".***

Düzdür, cəfəngiyyat xarakterli, şantajla dolu sənədə imza atanların erməni lobbisinin fəal nümayəndələri olduğunu nəzərə alanda bu təxribat elə də təəccüblü gəlməsə də, ancaq pərdəarxası məqamlar hər bir azərbaycanlının düşüncəsində ikrah hissi doğuran, cavabı gün kimi aydın onlarla sual yaradır. Gələn ay Bakıda keçiriləcək COP29 tədbirinə qədər Azərbaycanı məsuliyyətə cəlb etməyə yönəlmiş çağırışın əsas koordinatoru olan ABŞ rəhbərliyi 30 ildə bir dəfə Azərbaycanın haqq çağırışına ürəkdən tikan çıxaracaq, əhsən dedirtdirəcək səs verdimi? Xeyr. Əksinə, 907-ci düzəlişin qəbul edilməsi əsasında antiazərbaycan tədbirlərinə başlayan, həqiqətdən uzaq, gülünc arqumentləri zaman-zaman mənafeyi naminə siyasi alətə çevirən Birləşmiş Ştatlar hər dəfə bir bəhanə ilə məsələnin mahiyyətindən yayınmağa, hadisələrə absurd don geyindirməyə çalışdı, uzun illər BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin kağız üzərində qalmasına faktiki şərait yaratdı. Ölkəmizi, Qarabağı blokadada saxlamaqda, etnik təmizləmədə ittiham edərək özünü dırnaqarası beynəlxalq ədalətin tərəfdarı adlandıran bu "super güc" hansısa dünya səviyyəli tədbirdə öz evindən qaçqın düşən bir milyon yarımdan çox insanın hüquqlarını müdafiə etdi də bizmi görmədik?! Özünün əli milyonlarla günahsız insanın, körpə uşağın qanına batan, əksər ölkələrdə müharibə ocağı yaratmaqla bundan əla təsir, təqib mexanizmi kimi istifadə edən ABŞ-dan Xocalı soyqırımı, Gəncə, Bərdə terroru barədə ədalətli mövqe gözləməyin yersiz olduğunu hər birimiz gözəl bilirik. Ona görə də bu detalların dərinliyinə varmırıq. Ancaq dünya düzəninin nizama salınması məsələsinə "Ədalət çarçısı" zirvəsindən baxan bu "demokratik" ölkədən 44 günlük müharibədən sonra Azərbaycanın sülh, humanist mövqeyi qarşısında utanc hissi duyaraq, nəhayət ki, barışdırıcı münasibət, konstruktiv yanaşma sərgiləməsini gözləmək olardı. Əvəzində isə nə görürük? ABŞ nə edir? Bu ilin fevralında səfirliyi Azərbaycan xalqının azad seçki hüququna, iradəsinə hörmətsizlik göstərir, daha sonra ABŞ səfiri Mark Libbi gah ABŞ və Azərbaycanın maraqlarının üst-üstə düşdüyü və müsbət əməkdaşlıq təcrübəsinin olduğunu bildirir, gah da ölkəmizin tarixi zəfərinə, apardığı Böyük Qayıdış siyasətinə kölgə salmaq məqsədi daşıyan sərsəm bəyanatlar səsləndirir. Aprelin 5-də isə "Qoca Qitə"nin nümayəndələri Avropa İttifaqı ilə əl-ələ verərək Qarabağın Ermənistana birləşdirilməsini əks etdirən absurd müddəanın yer aldığı antidemokratik konstitusiyayla idarə olunan Ermənistan hökuməti ilə Brüsseldə bir araya gəlir, görüş zamanı Ermənistana yeni müharibə tapşırığı verir. Beləcə, Azərbaycanın uzatdığı sülh əlinin geri çevrilməsi və regionda bitmiş münaqişənin yenidən alovlandırılmasına çalışır...

Əvvəla, ABŞ zor gücü hesabına neft və digər təbii ehtiyatlarla zəngin, hərbi cəhətdən zəif, bir sıra ölkələri qanunsuz istila etməklə beynəlxalq hüquq barədə danışmaq haqqını çoxdan itirib. Digər tərəfdən, əgər erməni separatçılığının məhv olunmasını "etnik təmizləmə" adı altında əldə bayraq etmək fikrindədirsə, öncə ötən əsrdə dəfələrlə deportasiya dalğasına məruz qalan, maddi varidatı, mənəvi dəyərləri əlindən alınan qərbi azərbaycanlıların öz torpaqlarına qaytarılmasını da eyni qaydada tələb etsin. Minlərlə azərbaycanlının qanına əli bulaşan, günahsızların ölüm fərmanını imzalayan qatillər Ruben Vardanyan, Araik Arutyunyan, Bako Saakyan, Arkadi Qukasyan və digərlərinin azadlığa çıxmağını arzulayırsa, əvvəlcə qarşı tərəfdən Birinci Qarabağ müharibəsində itkin düşmüş minlərlə soydaşımızın taleyinə də aydınlıq gətirməyi istəsin. Bu ikili standartların həcmini istənilən qədər böyütmək, qeyri-konstruktiv mövqe barədə saatlarla danışmaq olar, ancaq fikrimcə, ən müfəssəl cavabı Qalib Lider verib. Ölkə başçısının Cəbrayıl rayonundakı həmin tarixi çıxışından sonra Milli Məclisin deputatlarının xarici işlər naziri Ceyhun Bayramova müraciətləri də bu baxımdan olduqca tutarlıdır: "Saxta əsaslarla insan hüquqları və beynəlxalq humanitar hüquqa riayət edilməsi sahəsində Azərbaycana iradlar irəli sürən müraciətin müəlliflərinə ABŞ-nin İraq, Əfqanıstan və dünyanın digər müxtəlif bölgələrində törətdiyi müharibələr zamanı milyonlarla dinc insanın həlak olduğunu, çoxlu sayda insanın işgəncəyə məruz qalmasını və hüquqi proses olmadan onlara cəza verilməsini xatırlatmaq istərdik. İnsan hüquqlarından dəm vuran ABŞ ən mühüm insan hüquqları konvensiyalarına qoşulmamışdır. BMT-nin İşgəncələrə qarşı xüsusi məruzəçisini uzun illər Quantanamoya buraxmayan həmin ABŞ-dir..."

Ümumilikdə, oktyabrın 3-də Amerika Birləşmiş Ştatlarında bir qrup konqresmenin dövlət katibi Antoni Blinkenə ünvanladığı müraciətin əsl məğzi, mahiyyəti onu göstərir ki, vahid məqsəd ermənilərin Qarabağa öz istədikləri formada, yəni Azərbaycan vətəndaşlığını almadan qayıtmasına, Azərbaycan ərazisində yenidən erməni separatizm yuvasının yaradılmasına nail olmaqdır. Bu boş niyyətlərlə, cəfəng xülyalarla yaşayanlara ən təsirli, effektiv, yerinəoturdan cavabı ötən il "Dəmir yumruq" bir daha əyani surətdə, qəti şəkildə verib və ölkə başçısının da dediyi kimi, "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın! ***"Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə"*** sitatın sonu!



# Təkcə tərifimdir Azərbaycanım...

**Azərbaycan, adın oddur, özün – işıq, sözün – işıq.**
**Biz də sənin bu müqəddəs torpağından boy atmışıq,**
**Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,**
**Yolumuza işıq saçsın ulduzumuz, hilalımız.**

Bu sözləri inci kimi bir-birinə toxuyan Bəxtiyar Vahabzadədən tutmuş hər bir söz sahibi Vətəni tarixboyu tərənnüm ediblər. Çünki Vətənin hər qarışı bizlər üçün doğma və əzizdir. Qılıncımız olmadıqda qələmə, qələmimiz olmadıqda isə qılınca əl atdıq. Tarixboyu dəfələrlə çalışdıq, vuruşduq Vətəni yad caynaqlara buraxmadıq. Ərəblər, xəzərlər, monqollar və neçə-neçə dövlətlərin iştahalı baxışları ilə süzüldük. Hər daşında, hər qarışında tarix yatır bu Vətənin. Baxmayın ki, ərazi cəhətdən balaca bir məkanı əhatə edib bu ulu yurd yeri. Cənubdan tutmuş şimala, Avropadan tutmuş Asiyaya qədər əcdadlarımızın ayaq izi var bu dünyada.

Elə bir torpağa Vətən dedik ki, tarixindən, ədəbiyyatından, adət-ənənələrindən, igid övladlarının qəhrəmanlığından nə qədər yazsaq da, kifayət etməz. Axı bu Vətən dəyərli kəlamlarını qızıl qarşılığında satmaqdan imtina edərək saraylardan uzaq duran Nizaminin, Bakıda sürgündə olarkən durnalara belə ehtiyatlı olmalarını söyləyən Qasım bəyin vətənidir.

Əyilməzlik simvoludur bu torpaq. Kimsə tarix, qəhrəmanlıq və vahid Vətən görmək istəsə, Azərbaycana nəzər salsın. Səməd Vurğun da bir vaxtlar dahi ustad Vaqifin timsalında Vətəni vəsf edirdi. Onun Qacarın önündə vüqarla dayanmasını Vətən övladlarının əyilməzlik, vüqarlılıq kimi keyfiyyətlərə malik olmasını göstərirdi. İllər boyu dosta dost, qardaşa qardaş deyib bu diyarın sakinləri. Axı "mənim sağ əlim Cavidin əleyhinə nəsə yazsa, sol əlimlə onu baltalıyaram" sözlərini Mikayıl Müşfiq boşu-boşuna Hüseyn Cavid haqqında söyləməmişdi...

Zaqatalanın cəvizi, fındığı, Lənkəranın və Ordubadın ətir qoxulu limonu, Böyük Qafqazın ətəklərindəki çay plantasiyaları... Əsrarəngiz təbiətin Azərbaycana bəxş etdiyi nemətləri saymaqla bitirmək qeyri-mümkündür...

Naxçıvanda Möminə xatın türbəsi, Bakıda Şirvanşahlar sarayı, Günəş şüaları altında bərq vuran rəngli şəbəkələrlə işlənmiş Şəki xan sarayı və daha nələr-nələr...

Bu Vətən torpaqlarında indi də Dədə Qorqudun qolça qopuzunun səsi və Koroğlunun nərəsi eşidilir. Sevgi adı çəkiləndə Nizaminin və Füzulinin "Leyli və Məcnun" əsərindən ibrət aldıq, qəhrəmanlıq deyildikdə isə Dədə-Qorqud boylarına nəzər saldıq. Bu Vətənin tarixiliklə dolu qucağında elə hadisələr yatır ki, həmin hadisələr gah məşhur fransız yazıçısı Aleksandr Dümanı xan qızı Natəvana mat edir, gah da şair Əhməd Cavadın cansız bədənini məzarsız qoyur...

İstiqlal mübarizəsində Vətəni dilində şüar etmiş Xəlil Rza Ulutürkdən tutmuş, türk soy-kökümüzü müdafiə edən Bəxtiyar Vahabzadəyə qədər hər birimiz bu Vətənin bir övladıyıq. Vətən zamana və məkana baxmır. Repressiya dövründə Şərqin Şekspiri olan Cavid əfəndi və müasir ədəbiyyatın qəzəl ustadı olan Əliağa Vahid öz dövrlərində Vətəni necə təsvir edirdisə, cənub elindən Məhəmmədhüseyn Şəhriyar da Vətəni eyni cür görürdü...

*Biz də həmin Vətən sevdalılarının yaşayan miraslarıyıq. Bizim qələmimizdən çıxan Vətən anlayışı adıçəkilən dahilər qədər peşəkarcasına olmasa da, hər birimizin yeganə şüarı və tərifi Azərbaycandır...*

**Rafiq TƏHMƏZ**



## Muxtar respublikada fiber-optik internet xətləri genişləndirilir

Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı bir sıra layihələr həyata keçirilməkdədir.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşı Elçin Ələkbərov "Şərq qapısı"na fiber-optik internet sahəsində görülən işlər barədə məlumat verib: – Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi və nəzarəti, rəqabətədavamlı, qabaqcıl beynəlxalq tələblərə və təcrübəyə uyğun təşkil edilməsi məqsədilə bir sıra müvafiq işlər görülüb.

Rəqəmsallaşma sahəsində yeni infrastruktur quruculuğu, mövcud infrastrukturun müasirləşdirilməsi və yeni texnologiyaların tətbiqi istiqamətində layihələr hazırlanır. Həyata keçirilən tədbirlər, öz növbəsində, dövlət qurumlarında baş verən proseslərin səmərəliliyi ilə yanaşı, təhlükəsizlik və etibarlılığa da zəmin yaradacaqdır.

Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, müasir texnologiyaların tətbiqi, eləcə də əhalinin genişzolaqlı və mobil internet xidmətlərinə çıxış səviyyəsinin yüksəldilməsi və dayanıqlığının təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən addımlar atılır.

Atılan addımlar sırasında Naxçıvan Muxtar Respublikası ərazisində çəkilən fiber-optik internet xətləri də var. Bu sahədə kəşfiyyat-layihələndirmə işləri görülüb, ərazi quruluşu öyrənilib, magistralın infrastrukturunun keçəcəyi ərazilər müəyyənləşib. Mövcud infrastrukturla inteqrasiyası və ən uçqar ərazilərdə belə alternativliyin təmin olunması nəzərə alınıb, təchizat və tikintiyə hazırlıq işləri aparılıb.

Layihənin idarə edilməsi mərhələləri, eləcə də tikinti işləri nazirliyin tabeli qurumları tərəfindən həyata keçirilib. Kabel infrastrukturunun və fiber-optik aksessuarların, o cümlədən texnoloji avadanlıqların təchizatı yekunlaşdıqca quraşdırma və şəbəkələrin optimallaşdırma işləri həyata keçirilməkdədir. Muxtar respublika ərazisində 300 kilometrdən artıq məsafədə fiber-optik xətt çəkilişi nəzərdə tutulub və artıq texnoloji infrastrukturun 61,7 faiz hissəsinin tikintisi yekunlaşıb. Naxçıvanın coğrafi şəraitini nəzərə alaraq layihənin kritik komponentlərinin tikintisinin payız aylarında yekunlaşdırılması nəzərdə tutulur.

Nəticədə, muxtar respublika üzrə mövcud magistral xətlərə coğrafi alternativlik təmin edilir. Həmçinin lokal şəbəkələrin dayanıqlı birləşdirilməsi və tranzit tutumların daşınması üçün hədəflənən bu şəbəkə üçün geniş imkanlar yaradılır. Bu layihə sayəsində Şahbuz və Ordubad rayonlarının rabitə kanallarının alternativliyi təmin edilir ki, bu da adıçəkilən şəhərlərin, eləcə də kəndlərin telekommunikasiya xətlərinin ilk dəfə olaraq coğrafi alternativliyini təmin etmiş olacaq.

Qeyd edək ki, yeni fiber-optik magistral şəbəkəsinin yaradılması Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına böyük töhfə verəcəkdir. Layihə çərçivəsində həyata keçirilən işlər, eləcə də telekommunikasiya sahəsində ən müasir texnologiyaların tətbiqi telekommunikasiya şəbəkələrinin və yüksəksürətli internet xidmətlərinin çeşidini və keyfiyyətini artıracaqdır.

**Günel MƏMMƏDOVA**

# Şəhid zəvvarlı karvan



Vətəni olmayanlar nə bilər Vətən nədir? Bələləri Vətən uğrunda canından keçmək, fəda olmaq hissinin nə olduğunu haradan bilsin ki?!

Vətən, uğrunda ölən var ki, Vətənsən! Kəlmələrin ən şirinidir ana və Vətən sözləri. Birincinin bətnindən doğulursan, ikincinin qoynunda uyuyursan. Nə xoş bizə! Nə xoş ata yurdumun övladı olana, onun torpağından yoğrulana. Nə xoş bu qədər aslanların ayaqlarının dəydiyi ölkədə yaşayanlara.

Hələ Birinci Qarabağ savaşında bir millət kimi nələrə qadir olduğumuzu bilirəm. Otuz il əvvəl torpaqlarımız uğrunda gedən mübarizədə atalarımızın, əmi, dayı, qardaşlarımızın əzminə heyran olmuşdum uşaq ağlım ilə. İllərlə sürən davada yorulmadan, usanmadan torpaq uğrunda qurban getməkdən çəkinməyən xalqın nümayəndəsi olmaqdan qürur hissi duyuram. Atalarımızın yarımçıq qalmış mübarizəsini davam etdirən igid oğullarımızın əzmini görüb heyrətlənməyə bilmirəm. Birincilərin balası, ikincilərin anası olmaqdan fərəh hissi keçirirəm.

Ana demişkən nə dərəcədə asandır ki, övladını Vətən uğrunda qurban etmək və "Vətən sağ olsun" demək. Hansı güclü ata qəlbi dözsün bala adlı sağalmaz dağa?! Bala dağlı valideynlərə, şəhid doğmalarına, ailələrinə səbir ata et, İlahi!

Belə ailələrdən biri də Məmmədovlar ailəsidir. Rasim atanın və Sahilə ananın böyütdükləri üç övladdan ikincisi olan Sahil 7 iyun 1995-ci ildə Naxçıvan şəhərinin Qaraçuq kəndində anadan olmuşdu. Anası Sahilə xanımın dediyi kimi ailəsinə ikinci ən böyük sevinci yaşatmışdı Sahil. Hələ uşaq vaxtlarından yaşıdlarından fərqlənirmiş. Evdə, məhəllədə, məktəbdə sayılır, seçilirmiş bu gülərüzlü, şirin sözlü, yaraşıqlı oğlan. Sahilə xanım oğlunun ipək kimi xasiyyətindən, necə ailəcanlı olmağından, hörmət qazanmağından göz yaşları içərisində danışdıqca Sahili gözlərimin önündə canlandırırdım anasına, yeri gələndə ev işlərində, atasına həyət-bacada kömək etməkdən zövq alarmış Sahil.

2001-2005-ci illərdə Qaraçuq kənd tam orta məktəbində oxuyan Sahil ibtidai sinfi əla qiymətlərlə başa vurmuşdu. 2005-2009-cu illərdə Heydər Əliyev adına tam orta məktəbdə təhsilini davam etdirir və burada sevilən şagirdlərdən biri olur. Sərkərdə olunmur məncə, sərkərdə doğulur insan! Və bu anda düşünürəm ki, Sahil də anadan sərkərdə kimi doğulmuşdu! Demək ki, onun hər yerdə fərqli hərəkətləri bundan irəli gəlirmiş. Çünki Sahil yaşından artıq bir düşüncə sahibi idi. Və onun nə istədiyini də bilirdilər.



Baxmayaraq ki, anası onu yolundan döndərmək üçün dilə tutmağa çalışmış, alınmayınca xeyir-duasını vermişdi. Anasının: "Ay oğul, sən axı istənilən ali məktəbə daxil olmaq iqtidarındasan, axı niyə hərbini seçirsən? Çətindir hərbçi həyatı, təhlükəlidir hər anı hərbçinin!" sualına Sahil: "Ana, bu torpağı mən qorumayım, digərləri qorumasın bəs kim qorusun!" cavabını vermişdi. Nəhayət, ata-anasının razılığı ilə 2009-cu ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olur. Cəsarəti, çevikliyi, vətənpərvərliyi nümunə olur kursant yoldaşlarına. Arzular qabaqda qalaq-qalaq idi. Növbəti hədəfinə çatır. 2012-2016-cı illərdə Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirir. Naxçıvanda oxuyarkən həftə sonları evə gələndə bayram edirdi hamı. Qardaşı Amil və bacısı Rasimənin səs-küyləri evi başına alardı. Bakıdan gəldiyi dövrlərdə bambaşqa ab-hava olurdu evdə. Sahilə xanım: "Biz necə də bəxtəvər idik onda", – deyir. Sinəsi dağlı bir ananı dinləmək istəyirəm. Ona nə deyim?! Kəlmələr acizdir bu ata-anaların ağrı-acılarının qarşısında.

Sahil 2016-cı ildə Azərbaycan Ali Hərbi Məktəbini Motoatıcı ixtisası üzrə uğurla bitirir. 2016-cı il iyulun 4-də müdafiə nazirinin müvafiq əmrinə əsasən Şəmkir korpusunun snayper bölüyündə bölük komandirinin müavini, 2019-cu ilin mart ayında "N" hərbi hissədə Həmlə taborunda taqım komandiri vəzifəsində xidmət edir. O, Tovuz döyüşlərində də iştirak edir, cəsurluğu ilə fərqlənir. Ürəyi şəhidlərimizin qisasını almaq üçün döyünürdü.

II Qarabağ müharibəsinin başlaması onun da yanan ürəyinə su səpmişdi. Ali Baş Komandanın əmrini çoxdan gözləyirdi axı. İndi düşmənlə üz-üzə gəlməyin vaxtı idi. Sahil də digər qəhrəman oğullarımız kimi qorxmadan döyüş meydanına atıldı. Murovdağ silsiləsinin düşməndən təmizlənməsində xüsusi fəallıq göstərən Sahil döyüş yoldaşlarının xatirəsində yenilməzlik rəmzi kimi qalır. Birgünlük məşəqqətli döyüş yolunun sonunda onu ali bir məqam gözləyirdi: Şəhidlik zirvəsi! 28 sentyabr 2020-ci il tarixdə qəhrəmancasına şəhadətə yüksələn Sahil bütün sevgilərini Vətən sevdasına qurban verdi o gün. 29 sentyabr tarixdə şəhidliyə ucalması haqqında məlumat verilsə də, məlum səbəblərdən nəşini əldə etmək olmamışdı. 68 gün sonra ailəyə onun nəşinin tapılması haqqında məlumat verilir. Sahilə xanım: "O, 68 gündə nələr çəkdiklərimizi bir Allah bilir. Allaha yalvarıb balamın nəşinin tapılmasını dua edirdim. Heç olmasa, yatdığı yeri ziyarət edər, isti bədənini örtən soyuq daşını, torpağını sığallaram", – deyə düşünürdüm.

O dönəmdə Naxçıvana şəhid gətirilməsi davam edirdi. Bir Sahil kənar qalmışdı bu şəhid zəvvarlı karvandan.

Nəhayət ki, sevdikləri onun nəşini 7 dekabr 2020-ci ildə doğulduğu kəndin qəbiristanlığında uğrunda fəda olduğu torpağa tapşırdı. İndi onların təskinlik üçün üz tuta biləcəyi bir ünvan var idi, bəy otağı kimi bəzənmiş soyuq bir məzar olsa belə. Oğlunun qarayaylıq qalan həyat yoldaşından söhbət açan Sahilə xanımın gəlininə rəğbətini hiss etməmək mümkün deyildi. "Turanə Sahilə sədaqətli dost və yaxşı həyat yoldaşı, ailəsinə yaxşı övlad, bizə yaxşı gəlin, körpəsinə mehriban və qayğıkeş ana olub həmişə", – deyir Sahilə xanım gəlini haqqında. İndi isə şəhidinin adını uca tutub yaşadan ləyaqətli şəhid xanımıdır və bütün addımlarını şəhid Sahilinin adına layiq atır.

2017-ci ilin 16 aprel tarixində hər iki gəncin adına layiq toy etdi onlara Rasim ata, anası Sahilə xanım. Şanslı sayırdı özünü Sahil iki sevdasının arasında. Ürəyinin tam yarısını tutan Azərbaycan adlı yurd sevdasını Turanə adlı yar sevdası tamamladı. İndi onun məhəbbəti



bədirlənmiş ay misalı idi. Hərbçi həyatının çətinliyi onları nəinki yorur, əksinə, bir-birinə daha sıx bağlanmasına səbəb olurdu. Ailə həyatlarına doğacağı növbəti Günəşi gözləyirdi. 2018-ci il may ayının 15-də bir körpə nəfəsi daxil oldu bu hüzur dolu evə. Gecənin qaranlığını aydınlatdı o körpə. Adı Şəms olan bu qızcığaz nə bilərdi ki, qismətinə "şəhid əmanəti" kimi bir adı daşımaq düşüb. Çox az sürdü bu xoşbəxtlik onlar üçün. Vətənin başının üzərini alan qara buluddan yağan qara leysan apardı ailənin bütün sevincini. Mən həmişə düşünmüşəm ki, görəsən, gözəl olan çox şeyin ömrü niyə qısa olur? Və belə qənatə gəlmişəm ki, əbədi olaraq gözəl qalması üçündür gözəl münasibətlərin yarımçıq qalması.

Sahil özündən sonra bir can qoyub getdi. Şəms onun bütün həyatının mənası, sevgisinin bəhrəsiydi. Onunla bağlı arzu və planları sonsuz idi. O özünün balaca dünyası üçün böyük işlər görəcəkdi, əgər zalım düşmən minlərlə oğlumuz kimi onun da arzularını gözündə qoymasaydı.

Yandı ciyəri şəhid doğmalarının, amma mərd-mərdanə durdular düşməni sevindirməmək üçün. "Təki Vətən sağ olsun", – dedi anaları, "Təki torpağıma düşmən ayağı dəyməsin", – dedi şəhid ataları.

Döyüş hazırlığındakı nailiyyətləri və xidmətdə fərqləndiyinə görə bir çox mükafatlara layiq görülüb şəhid Məmmədov Sahil Rasim oğlu.

"Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", ölümündən sonra isə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Sahil Məmmədov "Vətən uğrunda" medalı ilə təltif edilib.

Rahat uyu şəhidim! Yenilməz ordumuz 44 gün ərzində düşmən tapdağından azad etdi azad görmək istədiyin torpaqlarımızı. Ruhun şad olsun, cənnət qoxulu şəhidim.

*Salam olsun məqamına, ey şəhid!*
*Salam olsun şöhrətinə, şanına!*
*Ucalardan uca etdin başını,*
*Layiq oldun millətin ad-sanına!*

*Xilas etdin torpağını yağıdan,*
*Yurd-yuvanı talan edən, dağıdan,*
*Yaxşı vurdun düşmənləri ağzından,*
*Qisasını buraxmadın yanına.*

*Tarix yazdın, tarix oldun özün də,*
*Dastan oldu söhbətin də, sözün də,*
*Yer, göy yaxan od baxışlı gözündən*
*Qorxu saldın kafirlərin canına.*

*Sən ey cənnətməkan üçün seçilən,*
*Boybuxunu Vətən üçün biçilən,*
*Şəhadətin şərbətidir içilən,*
*Qurban olum yurd yoğuran qanına.*

*Əbədiyyən susduraraq cahili,*
*Sevindirdin cavan, cahıl, ahılı,*
*Tanrı layiq gördü igid Sahili*
*Dönsün yurdun al şəfəqli danına.*

**Sevinc SƏBZƏLİYEVA**
***Xatirə Muzeyinin***
***baş fond mühafizi***

# "İrəvan xanlarının məktublar külliyyatı" kitabının təqdimatı olub

*AMEA Naxçıvan Bölməsində "İrəvan xanlarının məktublar külliyyatı (XVIII əsrin sonları)" kitabının təqdimatı keçirilib. Təqdimat mərasimini giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.*

AMEA Naxçıvan Bölməsində arxivlərlə işləmək ənənəsinin mövcudluğundan söz açan akademik bildirib ki, bölmə alimləri indiyədək İngiltərə, Rusiya, Gürcüstan və Türkiyə arxivlərində araşdırmalar aparmış, öz tədqiqat sahələri üzrə topladıqları arxiv materiallarını elmi dövriyyəyə daxil etmişlər. Təkcə ötən bir il ərzində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun xaricə ezam olunmuş əməkdaşları Sankt-Peterburq və Ankara arxivlərindən Naxçıvanla bağlı xeyli sayda arxiv sənədini elektron variantda Vətənə gətirməyə müvəffəq olmuşlar.




"Uzunmüddətli elmi araşdırmaları, əldə etdiyi arxiv materiallarının zənginliyi, sahib olduğu əsl araşdırma bacarıqları, aşkara çıxardığı tarixi faktlar deməyə əsas verir ki, Musa Quliyevin fəaliyyəti, ümumilikdə, AMEA Naxçıvan Bölməsində səmərəli qurulan arxiv işinin zirvəsidir. Alim ömrünü böyük səbir və diqqət tələb edən arxiv sənədlərinin tədqiqinə həsr edib. Onun nəşrə hazırladığı "İrəvan xanlarının məktublar külliyyatı (XVIII əsrin sonları)" kitabı isə xüsusi əhəmiyyəti ilə seçilir", – deyən bölmə sədri əsər barədə ümumi məlumat verib. Vurğulanıb ki, kitab İrəvan xanlığının və digər Azərbaycan xanlıqlarının tarixi ilə bağlı etibarlı mənbədir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov "İrəvan xanlarının məktublar külliyyatı" əsəri haqqında bir neçə söz" başlıqlı məruzə edib. Məruzəçi əvvəlcə İrəvan xanlığının tarixi, onun yürütdüyü daxili və xarici siyasət, kitaba məktubları daxil edilmiş İrəvan xanları barədə geniş məlumat verib.

Tədqiqatçı bildirib ki, İrəvan xanlığının münşisi olmuş Mirzə Məhəmməd Müslimin (Qüdsi) qələmə aldığı farsca məktublar külliyyatını rus qafqazşünası K.N.Smirnov rus dilinə tərcümə etmişdir. Musa Quliyev həmin külliyyatı Gürcüstan Respublikasının Milli Əlyazmalar Mərkəzində qafqazşünas K.N.Smirnovun şəxsi fondunda axtarışları nəticəsində əldə etmişdir. Əldə olunan məktublar İrəvan xanlığının, eləcə də digər Azərbaycan xanlıqlarının yürütdükləri daxili və xarici siyasətin, Türkiyə ilə saxladıqları diplomatik əlaqələrin öyrənilməsində böyük önəmə malikdir.

Sonra bölmənin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxış edərək "İrəvan xanlarının məktublar külliyyatı (XVIII əsrin sonları)" kitabını Musa Quliyevin gərgin zəhmətinin nəticəsi kimi dəyərləndirib.

Sonda müəllif Musa Quliyev əməyinə göstərilən diqqətə görə minnətdarlıq edib.

## Naxçıvanda 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib




Tədbir iştirakçıları ilk öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub. Ziyarət zamanı qonaqlara muzeydə Ümummilli Liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü, zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat verilib.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində davam edən tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə müəllim əməyini əvəzsiz qiymətləndirən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva bu şərəfli yolda səylə çalışan pedaqoqları təbrik edib, onlara peşə fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişaf tendensiyasının təhsil sektorunda, xüsusilə diqqəti cəlb etdiyini söyləyən Tükəzban Quliyeva “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın da təhsil siyasətinin, institusional və insan kapitalının inkişafı baxımdan mühüm yer tutduğunu qeyd edib.

Səlahiyyətli nümayəndəliyin əməkdaşı bildirib ki, Dövlət Proqramında ümumi təhsil müəssisələrinin maddi-texniki bazasının, infrastrukturunun inkişafı, ölkəyə inteqrasiyanın təmin olunması əsas istiqamətlərdəndir. Bu məqsədlə də Naxçıvanda STEAM əsaslı tədris, müəllimlərin mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə işə qəbulu, ədalətli şəkildə qiymətləndirmə sistemi tətbiq edilir. Bütün bunlar təhsilverənlərin peşəkar inkişafı baxımından böyük uğur hesab edilir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov şərəfli peşənin yolçularını 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib, uğurlar arzulayıb.

Nazir bildirib ki, müəllim əməyinə verilən yüksək qiymətin nəticəsidir ki, muxtar respublikada 400-dən çox müəllim “Əməkdar müəllim” fəxri adına layiq görülüb, “Tərəqqi” medalı ilə təltif edilib. Muxtar respublikanın ümumtəhsil məktəblərindən 8 müəllim “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” 8 müəllim isə döş nişanı ilə təltif olunublar.

Elxan Nəcəfov bildirib ki, müəllimlərimizin yorulmaz səyləri sayəsində 2024-cü il şagird nailiyyətləri baxımından Naxçıvan təhsili üçün ən uğurlu illərdən olub. Belə ki, buraxılış və qəbul imtahanlarında şagirdlərimiz tərəfindən son 5 ilin ən yüksək nəticələri əldə edilib.

Daha sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatının Humanitar və sosial məsələlər şöbəsinin aparıcı məsləhətçisi Həsən Kərimov, Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev və Ordubad şəhər tam orta internat məktəbinin müəllimi Müseyib Abutalıbov əlamətdar gün münasibətilə müəllimləri təbrik ediblər.

Qeyd olunub ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyası Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son illərdə təhsil sahəsində əldə edilən nailiyyətlər və nəzərdə tutulan tədbirlər Azərbaycan təhsilinin bundan sonra da davamlı şəkildə inkişaf edəcəyinə zəmin yaradır.

Sonra təhsil sahəsində səmərəli fəaliyyətinə görə bir sıra müəllimlərə “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin “Fəxri fərman”ları, “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunan müəllimlərə nişan və vəsiqələr, həmçinin hədiyyələr təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

## Heydər Əliyev Su Anbarına 200 min sazan balığı körpəsi buraxılıb




Biomüxtəlifliyin qorunması, su hövzələrinin zənginləşdirilməsi, balıq populyasiyasının artırılması məqsədilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbər və işçi heyəti, eləcə də Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, digər rəsmi şəxslər və ekokönüllülər iştirak edib.

Həmçinin Uzunoba Su Anbarına sazan balığının körpələri, eyni zamanda kəklik, turac və ördək quşları təbiətə buraxılıb.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev “Şərq qapısı” qəzetinə müsahibəsində bildirib ki, bu gün muxtar respublika ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində 40 kəklik, 15 turac və 2 ördək öz təbii areallarına qaytarıldı. Nazir onu da qeyd edib ki, bu tədbirlərin keçirilməsi sayı azalan növlərin bərpasına, bioloji müxtəlifliyin qorunmasına, növlərin populyasiyalarının sabitləşməsinə töhfə vermək, bu sahədə dayanıqlı inkişafı dəstəkləmək məqsədi daşıyır.

## Naxçıvanın kəndlərinin elektrik təsərrüfatı yenidən qurulur




Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən “Şərq qapısı” na verilən məlumata görə,“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində 20 kəndin 10 kilovoltluq və 0,4 kilovoltluq elektrik şəbəkəsinin layihələndirilərək yenidən qurulması nəzərdə tutulub.

İlkin olaraq bununla əlaqədar xidmət tərəfindən dövlət satınalınması həyata keçirilib. Culfa rayonunun Yaycı, Babək rayonunun Qahab, Şahbuz rayonunun Kolanı, Şərur rayonunun Xanlıqlar və Sədərək rayonunun Qaraağac kəndlərində topoqrafiya işləri aparılıb, layihələndirmə işlərinə başlanılıb. Digər nəzərdə tutulan 15 kəndin elektrik təsərrüfatının yenidən qurulması üçün müvafiq tender elan edilib. Muxtar respublikanın digər kəndlərinin elektrik təsərrüfatının yenidən qurulması üçün xidmətin vəsaiti hesabına dövlət satınalmaları həyata keçirilərək bir çox mal-materiallar alınıb.

Alınan müasir özünü daşıyan izolyasiyalı kabellər (SİP) və aksesuarları, güc transformatorları, izolyatorlar, kabel ucluqları, tikinti materialları və digər avadanlıqlar muxtar respublika üzrə şəhər və rayon elektrik şəbəkələrinə göndərilib.

Həmçinin ötən əsrin sonlarından istismar olunan hava elektrik verilişi xətləri yenilənəcək, istismar müddəti bitmiş taxta dirəklər dəmir-metal dirəklərlə əvəz olunacaq. Bunun da nəticəsində abonentlər daha keyfiyyətli, dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq, şəbəkələrdə qəza və imtinaların sayı minimuma endiriləcək, elektrik enerjisinin texniki itkiləri azalacaqdır.

## Naxçıvan Sahibkarlar Konfederasiyasının hesabat xarakterli iclası olub



Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının 2024-cü ilin 9 ayı üzrə görülən işlər və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İclasda konfederasiyanın sədri Vüqar Abbasov çıxış edərək bildirib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na əsasən diyarımızın azad iqtisadi zonaya çevrilməsi mühüm hədəflərdən biridir. Bu məqsədlə Naxçıvanda xüsusi iqtisadi rejimin tətbiq edilməsi nəzərdə tutulur. Naxçıvan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə qeyd olunub ki, ölkənin dayanıqlı inkişafının təmin edilməsi məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar muxtar respublika iqtisadiyyatının inkişafında da yeni mərhələnin başlanmasını zəruri edir. Xüsusilə Naxçıvan Muxtar Respublikası ərazisində xüsusi iqtisadi rejimin tətbiq olunması istiqamətində hazırlıqlar bu sahədə müxtəlif tədbirlərin həyata keçirilməsini ön plana çıxarır. Qeyd olunub ki, Naxçıvan iqtisadi rayonunda dayanıqlı sahibkarlıq və investisiya mühiti yaradılmaqla xarici və yerli investisiyaların cəlb edilməsi, iqtisadiyyatın səmərəliliyinin artırılması üçün xüsusi güzəşt və imtiyazlar mexanizminin formalaşdırılması, “yaşıl iqtisadiyyat”ın inkişafı, şaxələndirilmiş ixrac potensialına nail olunması, yeni iş yerlərinin açılması və digər istiqamətlərdə həyata keçiriləcək tədbirlər xüsusi iqtisadi rejimin tətbiq edilməsinə geniş imkanlar açacaq.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının əməkdaşı Nuray Kərimovanın da çıxışı dinlənilib. Diqqətə çatdırılıb ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası misilsiz inkişaf yolu keçib. Qısa vaxt ərzində belə bir yeniləşmə və yüksəlişə nail olmaq çox çətindir. Muxtar respublikada həyata keçirilən quruculuq, abadlıq və yenidənqurma işləri, yeni sənaye müəssisələrinin yaradılması, yerli istehsal sahələrinin iqtisadi-siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olub. Son illərdə yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırıb, idxalın həcmini isə azaldıb.

Bu gün artıq Naxçıvan Muxtar Respublikası dayanıqlı inkişafa malik, ixrac imkanlarını hər il daha da artıran müasir bir diyar kimi nüfuzlu beynəlxalq qurumların, investorların da diqqətini cəlb edir. Muxtar respublikamızda da sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür, yerli istehsalın çəkisi artırılır, özəl sektorun inkişafı daim diqqətdə saxlanılır. Bununla bağlı yerli sahibkarlıq subyektlərinin xarici ölkələrdə təşkil edilən kurs və biznes forumlarda iştiraka cəlb edilməsi və bu məsələ ilə bağlı onların maarifləndirilməsi konfederasiya tərəfindən nəzarətdə saxlanılır.

Sonra sahibkarları maraqlandıran suallar cavablandırılıb.

## *“İqlim dəyişikliklərinin sağlamlığa təsiri” mövzusunda konfrans*



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına həsr olunmuş “İqlim dəyişikliklərinin sağlamlığa təsiri” mövzusunda konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən “Şərq qapısı”na bildirilib ki, tədbirdə qlobal istiləşmənin yaratdığı sağlamlıq problemləri və onların aradan qaldırılması yolları müzakirə olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Təlim və Simulyasiya Mərkəzinin direktoru Aytən Rzayeva COP29-un ölkəmizdə keçirilməsinin strateji əhəmiyyətini vurğulayıb və iqlim dəyişikliyinin son illərdə dünyada ekoloji, iqtisadi və sosial problemlərə səbəb olduğunu qeyd edib. O konfransın gedişatı və keçirilməsinin əhəmiyyəti barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xidmət rəisi Azər Məmmədov çıxışında muxtar respublikada son illərdə ekoloji təmizliyin qorunması və saxlanılması istiqamətində həyata keçirilən tədbirləri vurğulayıb. Qeyd edib ki, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq bu sahədə görülən işlər ardıcıl və sistemli şəkildə davam etdirilir.

Sonra iqlim dəyişikliyi və sağlamlıq mövzusu ətrafında müxtəlif təqdimatlar edilib. Ekopatologiya, nanotexnologiyalara əsaslanan müasir yanaşmalar və qlobal istiləşmənin insan immun sistemi və dəri xərçənginə təsirləri kimi məsələlər müzakirə olunub. Çıxışlarda iqlim dəyişikliyinin insan sağlamlığına geniş təsirləri barədə ətraflı bəhs edilib.




# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Ələkli kəndindən olan şəhidimiz Elton Qənbərlinin anası Sona Qənbərovanın, Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Arif Abbaslının anası Əntiqə Abbasovanın və Kəngərli rayonunun Qıvraq qəsəbəsindən olan şəhidimiz Elçin Əsgərovun anası Fəxriyyə Əsgərovanın övladları haqqında xatirələri yer alıb.***

## Elton Baba oğlu Qənbərli

*(01.02.1997-19.10.2020)*

### Vətən üçün canını sipər edən igid





İnanın ki, çox çətindir. Düzdür, çox qürurluyuq. Oğlumla fəxr edirəm. Amma bala itkisi çox ağırdır. Təsvir edib demək, cümlələrə sığdırmaq, təbii ki, asan deyil. Azərbaycanın vətənpərvər, qeyrətli, torpaqlarımızı azad edən, bayrağımızı ucalara sancan oğlanları, o cümlədən Elton başımızı uca etdilər. Qanları, canları bahasına tarixdə iz qoydular. Ali Baş Komandan cənab İlham Əliyev də hər çıxışında onlara minnətdarlığını bildirir. Naxçıvanlıların Qarabağ döyüşlərindəki qəhrəmanlıqlarını yüksək dəyərləndirir. Bir ana kimi sevinirəm ki, onların sırasında mənim də övladım olub. Ölümdən qorxmayıb. İgidlik göstərib. Torpaqlarımız uğrunda canından keçib. Bununla da Elton və onun igid dostları tariximizi daha da şərəfləndiriblər.




Bu gün Eltonun əsgərləri onun haqqında gözəl xatirələrini danışırlar. Bu məni bir qəhrəman şəhid anası olaraq çox qürurlandırır. Allaha dualar edirəm ki, nə yaxşı, belə oğul qismət etmişdi mənə. Böyükdən-kiçiyə hər kəslə davranışında çox səmimi, mehriban idi. Bu gün qəhrəman şəhidlərimiz cismən bizim aramızda olmasalar da, ruhən, qəlbən bizimlədirlər. Həmişə də qəlbimizdə yaşayacaqlar. Elton əfsanəvi taborun qəhrəmanlarındandır. YAŞMA-da idi. Döyüşlər ərəfəsində imkan tapdıqca özlərindən sonra xatirələr qoyaraq videolar çəkiblər. Mən bir ana kimi əminəm ki, Azərbaycan durduqca qəhrəman şəhidlərimizin xatirəsi minnətdarlıqla anılacaq.

Mənim bu müharibədə 3 qəhrəmanım oldu: Qənbərli Elton, İbrahimli Adil, bir də qızım Nargül. Bilirsiniz ki, o çətin, amma şərəfli, qürurlu günümüzdə onu Azərbaycanımızın Nigarı, Həcəri adlandırdılar. Onlar heç vaxt unudulmayacaq. Eltonun adını heç yerə sığdıra bilmirəm. Kasıbçılıqla böyütsəm də Eltonu, o mənə ən qiymətli adı bəxş etdi. Çətinliyimiz olsa da, üzündən təbəssüm əskik olmurdu. Mən çətinliklərə üzülməyim, narahatlıq yaşamayım deyə əlindən gələni edirdi. Gələcəyimiz üçün vədlər verirdi ki, ana, hər şey yaxşı olacaq. Verdiyi vədlər onun gələcək arzuları idi. Amma arzuları ürəyində qaldı. Ən böyük arzusuna çatıb. Bu, torpaqlarımızı geri qaytarmaq arzusu idi. Allah Prezidentimizi, ordumuzu, xalqımızı qorusun. Vətənimiz daim var olsun! Bu gün dövlətimiz qəhrəman oğullarımızın adını yaşatmaq üçün çox işlər görür. Təbii ki, mən də övladımın adı ilə fəxr edirəm. İnanın ki, bu fəxarət hissi canı könüldəndir. Çalışıram ki, Eltonun, Adilin adına layiq bir ana olum. Allahdan arzulayıram ki, onların adına layiq qürurla, fəxarətlə necə yaşayıramsa, ömrümün sonuna kimi də elə yaşayım. Bütün şəhidlərimizin ruhları şad olsun.

## Arif Firuz oğlu Abbaslı

*(15.12.1993-12.10.2020)*

### Torpağın hər qarışını göz bəbəyi kimi qorudu





Arifin xatirələri çoxdur. Heç biri də yadımdan çıxmır. Hərbi hissəyə yaxın ərazidə yaşayırdıq. Hər səhər hərbi hissədən marş sədaları evə gəlirdi. 8-ci sinifdə oxuyanda dedi ki, mən hərbi məktəbə getmək istəyirəm. Dedim ki, hərbi çətindir. Müəllimləri də deyirdilər ki, dərslərini yaxşı oxuyur. Ali məktəbə qəbul oluna bilər. Deyirdim ki, get müəllim ol, həkim ol. Deyirdi ki, məni qoymursan hərbiyə, lakin universitetə qəbul ola bilməsəm, günahkarı sən olacaqsan. Bu sözlərdən sonra atasına dedim ki, sənədlərini hazırlayaq hərbi məktəbə getsin. Çox yüksək bal ilə hərbi məktəbə daxil oldu.



Balaca vaxtlarından valideynlərinə hörmət saxlayan uşaq idi. Hərbi məktəbdə də özünü doğrultdu. Oranı bitirdikdən sonra sənədlərini xüsusi təyinatlılara verdi. İstəmədim, ora getməyini, çünki oranın ağırlığını bilirdim. Qətiyyətlə dedi ki, yox, gedəcəyəm. Bir il də oranı oxudu. Həmişəki deyirdi ki, Xocalıdakı qız-gəlinlərimizin qisasını alacağam. Sevdiyi qızla ailə həyatı qurmuşdu. Bir qız balası dünyaya gəldi. Qızının yaşının tamamında evdə ola bilmədi. Deyirdi ki, işim belədir. Davamlı olaraq təlimlərə gedirdilər. Heç vaxt evdə söz açmazdı işinin ağırlığından. Amma söz vermişdi ki, qızının iki yaşını keçirəndə evdə olacaq. Hər sentyabr ayı gələndə boğuluram.

Sentyabrın 27-si idi. Atası televizora baxarkən eşidir müharibənin başladığını. Mənə də deyəndə təlaşla dedim ki, Arifə, Şaiqə zəng et. Çünki hər iki oğlum hərbidə idi. Telefonu evdə qaldığından zəngə yoldaşı cavab verdi. Titrək səslə dedi ki, Arifgili dünəndən aparıblar. Getməzdən əvvəl də yoldaşına deyirmiş ki, kimsəyə nəsə deməsin. Amma demişdi ki, anama, atama deyərsən, haqlarını halal etsinlər. Demişdi ki, sizi də Allaha əmanət edirəm. Bunu da yoldaşına deyib ki, anidən qapı döyülər, açarsan, əlinə bayraq versələr, yıxılma. Getməzdən əvvəl ailəsini belə alışdırmışdı. Ayın 23-ü telefonla danışarkən dedi ki, ana, gəlib sizi görmək istəyirəm. Sabahı günü danışanda dedi ki, ana, gəlmək istəyirəm, amma xəstəliyə görə icazə vermirlər. 25-i yenə görüntülü danışdıq. Gördüm, qəribə baxışlarla baxır. Soruşdum ki, bala, nəsə narahatlığın var, dedi yox, elə-belə baxıram. İndi də o həsrətli görüntü gözümdən getmir.

## Elçin Yalçın oğlu Əsgərov

*(03.02.1997-25.10.2020)*

### Şəhadətə yüksələn oğlumun ruhu şaddır





Elçin uşaqlıqdan hərbiyə maraq göstərirdi. Orta məktəbdə yaxşı qiymətlərlə oxuyurdu. 8-ci sinifdən sənədlərini hazırlayıb hərbi liseyə daxil oldu. Orada da nümunəvi kursant kimi müəllimləri ondan razılıq edirdilər. Həmişə sinəsinə əli ilə vurub deyirdi ki, Qarabağı bu oğlan alacaq. İlk qulluq yeri Beyləqan oldu. Sonra başqa hissəyə göndərdilər. Təlimlərdə ciddi iştirak edir, fəallıq göstərirdi. Həmişə xoş sədasını alırdıq. Hətta təlim zamanı Türkiyədən gələn general demişdi ki, Elçin, belə davam etsən, arzun yerinə yetəcək, Qarabağ azad olunacaq. Çünki sənin kimi igidlər varsa bu mütləq olacaq. Müharibə başlanmazdan əvvəl zəng etdi ki, ana, biz toya gedəcəyik. Amma mən elə başa düşdüm ki, yenə təlimə gedir. Dedi ki, ana, bu dəfə gedirik gəlin gətirək, bu elə toy deyil. Atasına dedim ki, yəqin, kursa gedəcək. Səhəri gün xəbər tutduq ki, müharibə başlayıb. O zaman başa düşdüm ki, Elçin toy deyəndə bunu nəzərdə tuturmuş. Hər dəfə işğal altında olan torpaqlarımız azad edildikcə imkan tapıb zəng edirdi. Telefonda da elə sevinirdi ki… Amma hər gün də danışa bilmirdik. Axırıncı danışığımızda səsi yaxşı gəlmirdi. Sanki nəsə demək istəyirdi deyə bilmirdi. Dil tökərək dedi ki, ana, sən yenə də məni bağışla. Dedim, bala, qurban olum, mənə elə sözlər demə. Anlamışdım ki, bu nə demək istəyir. Dedim, Elçin, bir əlin, bir ayağın olmasa da, gəl, mən səni gözləyəcəyəm. Sağ-salamat yolunu gözləyirəm. Sonra 3 gün xəbər ala bilmədik. Demək, hamıya xəbər yayılıb ki, Elçin şəhid olub, bizimsə xəbərimiz yox... Arada danışmaq imkanımız olmadığından ağlıma da gəlmirdi. Amma deyim ki, son danışığımızda Şuşada olduqlarını demişdi. O danışıqdan 3 gün sonra Elçin şəhid oldu.

Müharibəyə getməzdən əvvəl zəngində demişdi ki, ana, həkim deyib qızın olacaq. Arzulayırdı uşaq tez doğulsun ki, onu görsün. 32 gün sonra qızı dünyaya gəldi, amma Elçin onu görə bilmədi. Bir dəfə də Elçin mənə böyük bir gül buketi almışdı. Bizi sevindirməyi xoşlayırdı. Bir dəfə tort hazırladıb üstünə də yazdırmışdı: “Əziz anam, yaxşı ki, mənim anamsan. Sənə qurban olum”. Məhəlləyə girəndə kimsə soruşmuşdu ki, kimin ad günüdür? Demişdi ki, anamın üzü gülsün deyə almışam. Mən burada çox olmuram. Belə düşüncəli, candanyanan oğul idi.



# Heydər Məscidinin sənətkarlıq nümunələri











***Dekorativ-tətbiqi sənətin geniş yayılmış növlərindən biri də bədii oyma sənətidir. Azərbaycanda bədii oyma sənətinin ən qədim nümunələri Gəmiqaya və Qobustan qayaüstü təsvirləridir. Adətən, sümük, daş, ağac və  digər materiallar üzərində işlənən bu sənət nümunələri, əsrlər boyu ustad sənətkarlarımızın hazırladığı rəsmlər və fiqurlar öz rəng çalarları, işləmə texnikası və keyfiyyəti ilə zövqümüzü oxşayır. Hər biri bir tarix olan bu nümunələr Azərbaycan dekorativ-tətbiqi sənətini xeyli zənginləşdirmişdir. Yaxşı haldır ki, bu sənət bu günümüzdə də davam etdirilir.***

Bu yazımızda uzaq keçmişdə deyil, bu günümüzdə yaşadılan bəhs etdiyimiz qədim xalq sənəti yaradıcılığının daş oyma və ağacoyma üzərindəki nümunələrinə toxunmaq istəyirik. Həmin nümunələr muxtar respublikamızda kifayət qədərdir. Bu da ölkəmiz müstəqillik qazandığı illərdə unudulmaqda olan müxtəlif sənət sahələrinin inkişafına şərait yaradılması ilə bağlıdır. Bunun ifadəsini Naxçıvan şəhərinin bir neçə ünvanında fəaliyyət göstərən sənət adamlarının yaratdığı nümunələrdə görmək olar. Bu baxımdan paytaxt şəhərimizdə yerləşən və  Şərq üslubunda işlənmiş Cənubi Qafqazın ən böyük ibadət ocaqlarından biri olan Heydər Məscidindəki bədii oyma naxışları diqqətimizi çəkir. Məscidin həyətindəki daş sütunların baza və kapitellərindəki oyma ornamentlər, eləcə də ikitərəfli daş oyma elementləri olan keçidlərdəki bəzəklər Şərq memarlıq üslubunun izlərini özündə ehtiva edir.

Məscidin daxili interyerində isə mehrab hissənin tamamilə xüsusi olaraq gətirilmiş cəviz ağaclarından hazırlanması diqqətimizi çəkir. Ağacdan hazırlanmış oyma bəzəkləri daş oymada olduğu kimi, birüzlü və ikiüzlü texnika ilə yonulub. 4 ilə başa gələn ağacişləmələr naxçıvanlı ağacoyma ustası mərhum Akif Həsənov tərəfindən həyata keçirilib. Naxışların Əcəmi memarlıq məktəbi abidələrində olduğu kimi, şəbəkələrdən ibarət hazırlanması interyerə daha də Şərq elementlərinin orientalizmini qatıb. Mehrabın hər iki tərəfində dairəvi formalı naxışlar içərisində xüsusi xəttatlıq üslubunda oyulmuş ərəbcə “Allahu Əkbər” (Allah böyükdür) sözləri yazılıb. Onu da qeyd edək ki, həndəsi və nəbati motivlərin həkk olunduğu ağacoyma nümunələrinin yaratdığı estetik gözəllik həm də bir-birini təkrar etmir. Bu da sənətkarın yaradıcılıq dünyasının zənginliyindən xəbər verir.

Qeyd etmək istərdik ki, tarixən sənət beşiyi sayılan qədim diyarımızda vaxtilə mövcud olmuş müxtəlif sənət növlərinə qayıdış təbiidir. Çünki bu torpağın yetişdirdiyi sənət dahilərinin əsərlərinin bu gün də zamanın boranına, çovğununa, bir sıra təbii fəlakətlərinə dözməsi o əsərlərin dəyərlərinin göstəricisidir.

Milli mədəniyyətimizin ayrılmaz hissəsi olan dekorativ-tətbiqi sənətin bu qolu da bu gün yaşadılaraq gələcəyimizə bir töhfə kimi öz mədəni izini buraxmaqdadır.

✍ **Aidə İBRAHİMOVA**

## Naxçıvanda xarici tədqiqatçıların iştirakı ilə arxeoloji kəşfiyyat işləri aparılır



“Şərq qapısı” xəbər verir ki, Rusiya Elmlər Akademiyası Sibir Bölməsinin Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Anton Aleksandroviç Anoykin, Dağıstan Federal Araşdırma Mərkəzinin Geologiya İnstitutunun aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru İdris Abdulbutayeviç İdrisov, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçiləri, tarix üzrə fəlsəfə doktoru, dosent Azad Zeynalov və tarix üzrə fəlsəfə doktoru, dosent  Bəhlul İbrahimli Paleolit dövrü abidələrinin aşkar olunması və tədqiqi məqsədilə Naxçıvana gəliblər.

AMEA Naxçıvan Bölməsində olan qonaqlar bölmənin sədri, akademik İsmayıl Hacıyevlə görüşüblər. Görüş zamanı Qazma mağarası və ətraf ərazilərdə aparılması nəzərdə tutulan arxeoloji kəşfiyyat araşdırmaları barədə fikir mübadiləsi aparılıb. Ekspedisiya üzvləri Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsində saxlanılan arxeoloji materiallarla tanış olublar.

Daha sonra Arxeologiya və Etnoqrafiya Muzeyində olan qonaqlar muzeyin ekspozisiyasına daxil olan arxeoloji tapıntılar barədə məlumat alıblar.

Paleolit dövrü üzrə mütəxəssis Azad Zeynalov görüşdən sonra üzvü olduğu beynəlxalq ekspedisiyanın ümumi fəaliyyəti barədə müsahibə verib.

Alim bildirib ki, Azərbaycan və rus alimlərinin birgə iştirakı ilə Xəzər ətrafı ölkələrdə Paleolit abidələrinin tədqiqi məqsədilə beynəlxalq layihə həyata keçirilir. Layihə iştirakçıları 2005-ci ildən başlayaraq Azərbaycanda araşdırma aparırlar. Müəyyən fasilədən sonra həmin tədqiqatlar yenidən davam etdirilir.

Ekspedisiya 2021-2023-cü illərdə Qazaxıstan, Dağıstan və Azərbaycanda Qədim daş dövrü abidələrini araşdırıb. 2022-ci ildə ekspedisiya üzvlərinin Qazma mağarasından xüsusi qaydada götürdükləri çöküntü nümunələri Danimarkanın Orhus Universitetində laborator analiz olunub. Hələlik, Qazma mağarası Naxçıvanda bu günədək aşkar olunmuş yeganə Paleolit abidəsidir. Abidənin qədimliyi və Naxçıvanın əlverişli coğrafi mövqeyi bölgədə həmin dövrə aid başqa abidələrin də olduğuna inam yaradır. Xüsusilə mağara tipli məkanlarda aparılan axtarışlar nəticəsində yeni abidə aşkarlanması Azərbaycan, eləcə də dünya arxeologiya elmi üçün mühüm irəliləyiş olar.

Qeyd edək ki, Rusiya Elmlər Akademiyasının Sibir Bölməsi AMEA Naxçıvan Bölməsinin uzun illərdir, əməkdaşlıq etdiyi elmi-tədqiqat müəssisələrindən biridir.

## “Şərq qapısı” qəzeti və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşları üçün seminar-müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Fövqəladə Halların Xəbərdar edilməsi və nəticələrin aradan qaldırılması idarəsi tərəfindən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin və “Şərq qapısı” qəzetinin əməkdaşları üçün  “Müəssisələrdə fövqəladə hallara hazırlığın vəziyyəti diqqət mərkəzində saxlanılır, fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları, dəm qazı təhlükəsindən qorunmanın yolları” mövzusunda seminar-müşavirə keçirilib.

Tədbiri “Şərq qapısı” qəzetinin baş redaktor müavini Məmməd Babayev açaraq payız-qış mövsümündə aparılan maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıb. Qeyd edib ki, müəssisə və təşkilatlarda yanğın təhlükəsizliyi ilə bağlı qarşıya qoyulan öhdəliklərin yerinə yetirilməsi baş verə biləcək təhlükələrin qarşısını alır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Fövqəladə Halların Xəbərdar edilməsi şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Mirtaleh Seyidov təbii fəlakətlərin baş verdiyi zaman vətəndaşların necə davranmalı olduqları barədə məlumat verib. Müəssisə və təşkilatlarda fövqəladə hallara hazırlığın diqqətdə saxlanıldığını qeyd edib.

Şöbə rəisi qarşıdan gələn qış fəslində qaz cihazlarından istifadə qaydaları haqqında da danışaraq  bildirib ki, düzgün quraşdırılmayan qaz sobalarından, suqızdırıcılardan  sızan dəm qazı insan həyatının sonlanmasına səbəb olur. Qeyd olunub ki, bu cür cihazların quraşdırılması zamanı mütləq mütəxəssislərin köməyi alınmalıdır.

Nazirliyin Dövlət Yanğın Nəzarəti İdarəsinin, Dövlət Yanğın Nəzarəti işinin təşkil şöbəsinin inspektoru, daxili xidmət kapitanı Toğrul Hacıyev tədbir iştirakçılarına müəssisələrin inzibati binalarında yanğın təhlükəsizliyi qaydaları ilə bağlı müəyyən edilmiş tələblərə əməl olunması, yanğın hadisəsi zamanı davranış və ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydası haqqında məlumat verib.

Tədbirdə mövzu ilə bağlı slaydlar təqdim edilib, iştirakçıların sualları cavablandırılıb.

# Hər kim yüz il yaşamasa...

İllər sürətlə bir-birini əvəz edib, əsrlər ötüb, qərinələr keçib, bu yurdun başı üzərindən nə rüzgarlar əsib. Əlincəqala isə məğrurluğunu itirməyib, beləcə, olanlara, bitənlərə şahidlik edib. Tək şahidlik etməyib, həm də qoynunda yer saldığı qədimdən də qədim Xanəgah kəndinə sipər olub, düşmənlərdən qoruyub. 14 il Əmir Teymur kimi dünya fatehinə meydan oxuyub. Nə yorulub, nə usanıb qoca Əlincə, uca Əlincə. Əlincənin əzəmətinə sığınan Xanəgah da bu qalanın tarixi qədər qədimlərdən qədim, ululardan uludur.

Xanəgahın yaşlı sakinlərindən olan Ölkə xanım evinin Əlincəqala mənzərəsinə açılan pəncərəsindən baxıb ölkəsinə, Əlincə zirvəsindən boylanıb dünyaya. Bu zirvədə nə görüb? Məğrurluq, əzəmət, yurda məhəbbət və bir də yaşamaq eşqi. Deyir, biz Əlincə adlı ucalığın övladlarıyıq. Günümüz bu qalanın ətrafında keçib. İndi ömrümün ahıl çağındayam. Gücüm illərlə zəhmət çəkdiyim bağıma baxmağa çatmasa da, övladlarıma halal zəhmətdən əl götürməməyi, torpağı boş qoymamağı və dünya malına həris olmamağı tövsiyə edirəm. Bu dünyadan özümüzlə aparacağımız yaxşı və pis əməllər olacaq. Gərək, yaxşılıq edəsən ki, insanlar səni rəhmətlə analar.













Culfanın bu kiçik kəndi, bütövlükdə, mədəniyyət və mənəviyyat ocağıdır. Yaşı qədimlərə söykənən tarixi abidələr bir-biri ilə vəhdət təşkil edir. Burada evlər tarixlə iç-içədir, tarixin izlərinə sayğı, milli ruhdan süzülüb gələn ənənəyə sadiqlik kiçikdən-böyüyə hər kəsin ruhuna hopub. İmanlı, xeyirxah, qonaqpərvər, dəyərlərə sadiq insanlar yetişdirib bu torpaq. Bu yaşayış yeri həm də Xanəgah memarlıq kompleksi ilə məşhurdur.

Əli kişini kənddə tanımayan yoxdur. Ədəbiyyata bağlı, mənəviyyatı zəngin el ağsaqqalı Xanəgah türbəsini, Nəiminin uyuduğu bu ocağı müqəddəs sayır. Deyir ki, Əlincəçay Xanəgahı uzun müddət burada fəaliyyət göstərən şeyxlərin yaşayış, ibadət və zikr yeri olub. "Yaşım 90-ı haqlasa da, adətim üzrə yenə də bu ocağa gəlir, Tanrıyla həmsöhbət olur, torpağım, yurdumun insanı üçün əllərimi göyə açıb dualar edirəm", – deyir Əli kişi. Onu da xüsusilə vurğulayır ki, ömrü verən Allahdır. Lakin insan da gərək ruhunu təmiz saxlaya, pisliklərdən, şərdən-böhtandan uzaq ola. Halal yaşaya, səxavətliliyi, insansevərliliyi özündən uzaq tutmaya. Özünə rəva bilmədiyini başqasına rəva görmə. Qapına diləyə gələnləri əliboş qaytarma. Əli kişi sonda Aşıq Ələsgərdən sitat gətirir:

*Aldanma dövlətə, uyma dünyaya,*
*Halaldan kəsb eylə özünə maya.*
*Zinakar, haramxor yetişməz baya*
*Dosta xain baxan kor olacaqdır.*

Xanəgah əzəldən mənəviyyat adamlarının, şeyxlərin məskəni olub. Orta əsrlər zamanı Əlincəçay Xanəgahı Naxçıvan ərazisində fəaliyyət göstərən ən böyük və nüfuzlu ocaq olaraq şərq ölkələrində də mövcud iri xanəgahlarla bir sırada durmuşdur. Nəsiminin müəllimi, hürufilik təliminin banisi Şeyx Fəzlullah Nəiminin Xanəgahda dəfn olunduğunu elmi mənbələr də təsdiqləyir. İllərdir, xanəgahlılar bu kamil insanın məzarını qoruyur, ziyarət edir, kamil insan ideyasını nəsildən-nəslə ötürürlər. Düşünürlər ki, insana hər iki dünyada rəhmət qazandıran, uzunömürlü edən də məhz kamillik olacaq. Dünyadan köçsə də, insanlığı ilə qəlblərdə yaşayacaqdır.

Kamil insan surətini Tanrıyla eyniləşdirən Fəzlullah Nəiminin təsəvvürünə əsasən dinindən, məzhəbindən asılı olmayaraq, Tanrıdan lütf və mərhəmət umanlar özləri mərhəmətli və ədalətli olmalıdırlar. Həqiqi etiqad insandan ədalət və sədaqət tələb edir. İnsanın etiqadı ilə əməli arasında uçurum olmamalıdır.

Fəzlullah Nəimi əbədiyyət naminə yazdığı əsərlərindən birində – "İsgəndərnamə"də böyük sərkərdə İsgəndərin dirilik suyu axtarmasını təsvir edir. Dirilik suyunun tapılmasını vəziri Ağıla tapşırır. Ağıl isə müdrik qoca taparaq ondan dirilik suyunun yolunu öyrənir. Ağıl əsərdə hikmətin, fəlsəfənin rəmzi, qoca isə xalq müdrikliyinin rəmzidir.

Ömrünün 100-cü pilləsində qərar tutan Vəli Qasımov kəndin ən yaşlı sakinidir. Əsrin yaşıdı olan Vəli Qasımov 1941-45-ci illər müharibəsinin iştirakçısı olub, Belarusun müdafiəsində iştirak edib. İndi hər il qələbənin qeyd olunduğu may ayında Belarusdan minnətdarlıq məktubu və hədiyyələr alır. 5 uşaq, 12 nəvə 22 nəticə sahibi olan Vəli Qasımov gününü boşa keçirmir. Səhər erkəndən oyanar, illərlə bəslədiyi bağına sığal çəkər, tanış-bilişlə hal-əhval tutmaq üçün kənd içinə çıxar.

Deyir, burada tarixlə təbiət baş-başa verib insanları yaşadır. Sağlam ruh, sağlam qida uzunömürlülüyün birinci sirridir. Kənddə bulaqlar çoxdur. İndi cavanlar sərinləşdirici içkilərdən çox istifadə edirlər. Amma mən 100 yaşına varan Vəli Qasımov deyirəm ki, dağlardan gələn dumduru şəffaf bulaq suları cana dərman, ürəyə məlhəmdir. Kəndimizdə axan bulaq sularını heç bir içkilərin heç birinə dəyişmərəm. Əlincəqalanın arxa tərəfində, çayın bu biri üzündə axan bulağa "Qızdırma" bulaq deyərik. Belə bir inam var ki, bu suyu için qızdırmaz, şəfa tapar. Məni bu yaşıma çatdıran da bax elə bu bulaqlardır. Vəli baba "Qızdırma" bulağı "dirilik suyu" adlandırır.

Nəiminin "İsgəndərnamə"sinə təsadüfdən istinad etmədik. Ömrü düzgün və sağlam davam etmənin sirləri Vəli baba kimi dünyagörmüş insanlardadır. Burada Vəli baba müdrik qoca, "Qızdırma"nın timsalında bulaq suları isə orqanizm üçün zərərli sayılan bütün içkilərə qarşı qoyulur.

Tanrıya qəlbən bağlı olan kənd sakinləri uzunömürlülüyün sirrini həm də Uca Yaradanın hər kəsə bəxş etdiyi bir ömür payı kimi dəyərləndirir. Lakin bu kəndə gələn hər kəs sanki bütün pisliklərdən, şər qüvvələrdən, səs-küydən, mənfi auradan uzaq, özünü Əlincə kimi əzəmətə söykəmiş, dünyadan ayrı bir yurd yeri kimi təsəvvür edər. Xanəgah kimi ikinci elə bir kənd varmı ki, özündə uzaq tarixə söykənən mənəviyyat ocaqlarını birləşdirə?!

Həyətlərə bitişik orta əsrlərə aid günbəzli tarixi-memarlıq abidəsi – Əmirxan türbəsi kənd camaatı tərəfindən "Təkyə" adlanır ki, bu da dini mərasimlərin keçirilməsi ilə əlaqədar olmuşdur. Kəndin uzunömürlülərindən olan Allahverdi kişi Təkyəni tez-tez ziyarət edir. Deyir, gözümüzü açandan bu abidələri görmüşük, sevmişik, qorumuşuq. Kənd içinə çıxanda abidələri ziyarət etməyi özümə mənəvi borc bilirəm. Allahverdi kişinin oğlu Yaşar Məmmədov torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəlib. Vətənpərvərlik, tarixə sevgi, yurda məhəbbət bu ağsaqqalın həyat amalıdır. Kəndin cavanlarına da Vətənə sevginin hər kəsin dünyaya gözünü açdığı yurd yerini qorumaqdan başladığını aşılayır.

Azan səsi eşidilir. Kənd əhalisi ibadətə tələsir. Məscid yalnız ibadət yeri deyil, həm də kəndin tarixini özündə qoruyan abidədir. Burada insan sanki keçmişə səyahət edir, mənən dinclik tapır, ruhən paklanır. Çox qəribə mistik bir ab-havası var. Kəndin digər uzunömürlü sakinlərindən biri olan 91 yaşlı Yusif Heydərov ibadət üçün hər gün məscidə gəlir. Yusif kişiyə görə insan ruhunu da çirkinliklərdən arındırmalıdır. Xoş düşünməli, ətrafına sevgi bəxş etməlidir. Bax o zaman insanın ruhu dinclik tapar. Bu həyatda edilən hər əməlin qarşılığı mütləqdir ki, özünə qayıdacaqdır.

Geni dəyişdirilmiş məhsulların süfrələrə yol tapdığı qeyri-sağlam həyat tərzinin, xəstəliklərin artdığı dövrdə yaşı 80-ni ötən hər kəsə uzunömürlü kimi baxırıq. Uzunömürlülük dövrümüzdə qənimət sayılır. Tofid Əliyevin 87 yaşı var. Uzun müddət çalışıb, həyətində cənnət yaradıb. Ən gözəl süfrə üzümləri onun həyətində yetişir. Təbii qidalanmanı insan həyatı üçün mühüm amil sayan Tofid kişi əlinin zəhməti ilə hasilə gətirdiyi bağının meyvələrindən bəhrələnər, şəfalı bulaq sularından içər, həyətinə açılan Əlincə mənzərəsindən zövq alar. Deyir, kəndin ab-havası çox gözəldir. Kəndi ikiyə bölən Əlincə çayı vaxtilə imdadıma yetib. Övladlarımdan biri uşaq ikən göyöskürək tutmuşdu. Balakişi Qasımov adlı həkimin məsləhətilə hər səhər çayın kənarında yürüşə çıxardıq. Onunla da uşaq sağlamlığına qovuşdu. Təbiət dərmandır. Ondan düzgün istifadəni biləcəksən. Sağlamlıq həm də qida ilə əlaqəlidir. Təbii qidalara üstünlük verməkmütləqdir. Həyətimin meyvələrindən istifadəyə üstünlük verərəm. Məsələn, ən faydalı üzüm növü hənəqırnadır ki, daha çox istifadə edərəm. Bir də belə bir deyim var ki, acmamış süfrədə oturma, doymamış qalx. Dahi Nizami demişkən:

*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da.*

Halallığı və düzgünlüyü həyat prinsipinə çevirən Tofid kişi deyir ki, yaxşılıq edərsən, yaxşılıq taparsan, pislik edərsən, pislik. Bu, labüddür.

"Ağsaqqal, ağbirçək olan ev ruzili, bərəkətli olar", – deyib atalar. Ağsaqqal öyüdü, ağbirçək nəsihəti ən ağır günümüzdə dadımıza yetib. Bəlkə də, buna görə Xanəgah bu qədər cəlbedici və insana hüzur bəxş edən yaşayış yeridir. Tarixin dərin qatlarından süzülüb gələn uzun ömür nəsibi olan Xanəgahın insanları da uzunömürlüdür.

Şəhərin səs-küyündən uzaqda, yaşıllıqların, gül-çiçəyin içində torpaqdan ikiəlli yapışan insanlar ömürlərini təbiətə, təbii məhsullara, dağlardan süzülüb gələn dumduru bulaq sularına əmanət edərək yaşayırlar. Yaşayırlar, yaradırlar, inanırlar. İnanırlar ki, hər kim yüz il yaşamasa, günah onun özündədir.

Yolunuzu qoca tarixlə günümüz arasında körpü olan, ömürlərinin müdriklik çağını yaşayan xanəgahlıların torpağına – Xanəgaha salın. Ruhunuzun dinclik, qəlbinizin sevgi ilə dolacağına inanın. İnanın ki, insanın ömrünə ömür calayan xoş niyyətlər, xeyirxah əməllərdir. Və inanın ki, hər kim yüz il yaşamasa, günah onun özündədir!

Ruhiyyə RƏSULOVA

## "Keçmişi unut gələcəyə bax, sən bir qəhrəmansan" adlı təlim olub



Naxçıvan regional "ASAN xidmət" mərkəzində "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşkilatçılığı ilə tədbir keçirilib.

Öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin bütövlüyü uğrunda canından keçən oğulların xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni səsləndirilib. Birliyin sədri Cehun Bayramov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil edilən 2024-cü il üzrə kiçik qrant müsabiqəsində Naxçıvan Dövlət Universitetinin əsas tərəfdaşı olduğu "Naxçıvan Qaziləri" İctimai Birliyinin "Naxçıvanda müharibə veteranları ilə iş" layihəsi qalib olub. Layihənin əsas məqsədlərindən biri də qazilərin müharibədə aldığı travmaların nəticəsinin aradan qaldırılmasıdır. Keçirilən təlimlərin əsas məqsədi müharibə ilə əlaqədar sağlamlığını itirən hərbçilərin cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq və sosial həyatda fəal iştiraklarını təşviq etməkdir. Vurğulanıb ki, müharibə sonrası travmaların müalicəsi, hərbçilərin psixoloji sağlamlıqlarını bərpa etmək istiqamətində görüləcək işlər layihənin əsas məqsədidir. Bildirilib ki, bu günə kimi bu istiqamətdə 6 təlim keçirilib.

"Keçmişi unut gələcəyə bax, sən bir qəhrəmansan" adlı təlim də bu istiqamətdədir.

Tədbirdə Naxçıvan regional "ASAN xidmət" mərkəzinin direktor müavini Əhməd Babayev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Üzeyir Məmmədov çıxış edərək Vətən müharibəsində ordumuzun rəşadətindən, xalqımızın öz əsgəri ilə bir olub, düşməni necə diz çökdürdüyündən danışıb.

Sonda dosent, klinik psixoloq, doktor Ayaz Seyidli tərəfindən motivasiya xarakterli söhbət aparılıb. Təlim zamanı qarşılıqlı fikir mübadiləsi olub.

## "Sevincin inciləri"nin konserti keçirilib



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Sevincin inciləri" qanun çalanlar ansamblının Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş konserti keçirilib.

Konsertin bədii rəhbəri Naxçıvan Dövlət Universitetinin müəllimi, Respublika və Beynəlxalq müsabiqələrin "QRAN PRİ" mükafatları laureatı, Prezident mükafatçısı Sevinc Babayevadır. Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kollecinin müəllimlərindən ibarət müşayiətçi qismində Munis Əlisoy, Camal Məmmədov, Sadiq Hüseynov, Ziya Fətullayev, xormeyster Aytəkin Mustafayeva, baletmeyster Zəliha Hüseynquliyeva, "Naxçıvan qala" ritm qrupunun ifalarında rəngarəng musiqi nömrələri səsləndiriblər. Konsertin solistləri Prezident mükafatçısı Samir İsmayılov, İlkin Abdullayev, Bəsti Nağıyeva, Özər Əliyev, Elnur Naxçıvanlı, Vəli Əliyevdir.

Qeyd edək ki, konsert proqramında Elçin Cəfərov və Tərlan Məmmədhüseynovun "Zəfər marşı", Ramiz Mirişlinin "Naxçıvan təranələri", Mahirə Nağıqızının "Qurban olduğum Azərbaycan" və başqa nəğmələr tamaşaçıların zövqünü oxşayıb.

# Zəhmətkeş xanımların qış tədarükü – əriştə









Xatirimdədir ki, uşaq ikən babamgilin həyətinə qohum-qonşu yığılar, qış üçün tədarük görülərdi. İlin bu fəsli yaxınlaşan zaman həmin illər canlanır gözümdə. Sevindirici haldır ki, bu adət-ənənələrimiz hələ də muxtar diyarımızda yaşadılır. Bunlar arasında əriştə kəsilməsi də var. Biz də "Şərq qapısı" qəzeti olaraq milli mətbəximizin ləziz təamlarından olan əriştənin hazırlanma qaydasını öyrənmək üçün yol aldıq yurdumuzun alınmaz qalası olan Sədərək rayonuna.

Burada ailə təsərrüfatçısı Mehbarə Hüseynovanın qonağı olduq. Əvvəlcədən razılaşdığımız həyətdə əriştə kəsmək üçün hazırlıq aparıldığını gördük. Yaxın qonşu olan xanımlar da gəlmişdilər. Çünki əriştəni hazırlayıb hasilə gətirmək tək adamın işi deyil. Mehbarə xanım bildirdi ki, əriştə kəsən zaman qohum-qonşu bir araya toplaşar, bir-birinə kömək edərlər. Bu da xalqımızın unudulmayan mətbəx adətlərindən biridir. Bu qida məhsulunu hazırlamaq üçün un ələyir, üstünə duz, yumurta və su əlavə edib qarışdırırıq. Daha sonra xəmir yoğuraraq hissələrə bölüb kündələyirik. Həmin kündədən nazik yuxa yayırıq. Yuxanı oxlovla bükür, əriştə kəsirik. Kəsilmiş əriştələr qurutmaq üçün həyətdə ipdən hazırladığımız şəritlərə sərilir. Əriştənin daha yaxşı alınması üçün quruduqdan sonra ocaqda qovururuq. Qovurarkən yandırmadan qızarmasına da xüsusi diqqət yetirilir. Qovurduqdan sonra qazanlara yığıb qışa saxlayırıq.

Digər müsahibimiz Yetər Abbasova deyir ki, kənd yerlərində qış aylarında daha çox xəmir yeməklərinə üstünlük verilir. Əriştə payız və qış aylarının ən sevimli yeməyidir. Bu yeməyə Şərur, Sədərək rayonlarının bir çox kəndində "umac aşı" da deyirlər. Yetər xanım diqqətimizə çatdırır ki, əriştəni təkcə özümüz üçün deyil, həm də şəhərdə yaşayan qohumlarımız üçün hazırlayırıq.

Əriştələri alıb ocaq başında dayanan Nailə xanımın yanına gəlirik. O bizə əriştənin bişirilmə qaydasından da danışır. "Əriştə aşı hazırlamaq üçün qazanın içərisinə əvvəla soğan, sonra kiçikölçülü lobya dənələri də atılaraq qaynadılır. Suyu süzülür. Quru alça, ərik yuyulur, əriştə qazana tökülməmişdən qabaq xörəyə vurulur. Bu yeməyə xüsusi dad və ətir verən ələyəzdir. Onu yeməyə əlavə etməzdən əvvəl mütləq qaynar suda islatmaq lazımdır. Sonra həmin ələyəzi möhkəm sıxırıq ki, acı suyu çıxsın". O bir məsləhət də verir: "Əriştəni təzə-təzə kəsib bu yeməyi bişirəndə daha dadlı olur. Bir də ki, kəsilən əriştəni dəstələyəndə bir az unlu saxlayıb yeməyə əlavə edəndə yeməyin suyu qatılaşar. Bu həm yeməyin doyuruculuğunu, həm də dadını artırır. Qazana ən son əriştəni əlavə edirik, əriştə qazandakı suyun üzərinə çıxanda yemək hazır olur.

İşin sonunda bacarıqlı xanımlar süfrə başına toplaşaraq zəhmətlə hazırladıqları əriştənin dadına baxaraq nuş edirlər".

Biz də yolyoldaşlarımızla birgə "Yolçu yolunda gərək", – deyib Sədərəyin qonaqpərvər sakinləri ilə sağollaşıb yola çıxırıq.

Əziz oxucularımız, onu da diqqətə çatdıraq ki, bu gün naxçıvanlıların əzizləyə-əzizləyə bişirdiyi xəmir yeməklərindən olan əriştə qış aylarında təşrif buyuran qonaqlar üçün süfrəyə gətirilən ən ləziz yemək hesab edilir.

**Bülbül QULİYEVA**

## Naxçıvan idmanında bədii gimnastika üzrə ilk beynəlxalq turnir qalibiyyəti

Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 3-cü beynəlxalq "Ocaq kuboku" reallaşıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, oktyabrın 3-dən 6-dək davam edən yarışda 10 ölkəni təmsil edən 37 klubdan 400 fərdi gimnast və 16 qrup komandası qüvvəsini sınayıb.



Naxçıvandan məşqçi Humay Qafarovanın rəhbərliyi ilə 7 gimnast turnirdə öz bacarıqlarını nümayiş etdirib. Gimnastlarımızdan ikisi fərdi çıxışlarda uğurla çıxış edərək hərəyə 1 medal qazanmağı bacarıblar.

Aydan Hüseynli (2013-cü il təvəllüdlü) halqa ilə çıxışlarda uğur qazanaraq həm öz adına, həm də Naxçıvanda gimnastika adına ilkə nail olub. Gimnastımızın çıxışı münsiflər heyəti tərəfindən yüksək balla dəyərləndirilib və nəticədə, o, birinci yerin sahibi kimi qızıl medala layiq görülüb.

Digər təmsilçimiz İlay Sangur (2014-cü il təvəllüdlü) da mükafatçılar sırasına düşüb. İlay halqa ilə hərəkətlərdə gümüş medal qazanıb.

## Cüdoçumuz beynəlxalq turnirin mükafatçısı olub

Goranboy Olimpiya İdman Kompleksində yeniyetmə cüdoçular arasında "Goranboy Cup" beynəlxalq turniri keçirilib. Oktyabrın 4-dən 6-dək davam edən yarışda Azərbaycan, Serbiya, Türkiyə, Lüksemburq, Küveyt, Estoniya, Latviyadan yığma komandalar, uşaq-gənclər idman məktəbləri və klublardan 600-ə yaxın cüdoçu müxtəlif çəki dərəcələrində çıxış ediblər.




Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin şagirdləri də medallar uğrunda mübarizə aparıblar. Təmsilçilərimizdən Fuad Cəlilzadə 42 kiloqram çəki dərəcəsində keçirdiyi 5 görüşdən dördündə qalib gəlib. Nəticədə, Fuad iştirak etdiyi ilk beynəlxalq turnirin bürünc medalına layiq görülüb.

## İtmişdir

Şahbuz rayonu, Biçənək kənd sakini Hüseynova Aygün Tarverdi qızının adına olan 159 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbəsində yaşamış Həsənov Hüseyn Aqil oğlunun adına olan JN-437$^{B}$ nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Rəsulov Elşən Həsən oğlunun adına olan JN-334 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Kərimov Adil Tofiq oğlunun adına olan JN-1222$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Salmanova Məsi Ələkbər qızının adına olan JN-213$^{A}$, JN-213$^{B}$ nömrəli, 10207018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Kərimov Həsən Mahmud oğlunun adına olan AA-002227 nömrəli 30.07.2008-ci il tarixli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Əliyev Bayram Abdulla oğlunun adına olan JN-300 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində Məmmədov Şücayət Hidayət oğlunun adına olan JN-819$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tənənəm kəndində yaşamış Babayeva Sona Səfər qızının adına olan 103$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

25.05.2016-cı il tarixdə Mehdiyeva Nigar Əkbər qızının adına verilmiş A-012241 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 36, ev 19-da yaşayan Həsənəliyeva Sabirə Cəfər qızının adına olan evin 6883 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Dünyamalıyeva Rübabə Hüseyn qızının adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

***

Mahmudlu Onur Nizami oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AD-0044338 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kəndində yaşamış Məmmədov Fətulla Kərim oğlunun adına olan JN-173 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əlincə məhəlləsi, ev 2$^{A}$, mənzil 11 ünvanında Rəhimov Məmməd Şahhüseyn oğlunun adına verilən 10410 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Behrud kənd sakini Məsumova Güllü Zilan qızının adına olan JN-130$^{A}$ nömrəli, 10705028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Əhmədov Arif Bahəddin oğlunun adına olan JN-612$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Nağıyev Novruzəli Cabir oğlunun adına olan 4818 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Tağıyev Nurəddin Cahangir oğlunun adına olan JN-327$^{A}$ nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Hacıniyyət kənd sakini Quliyev Rza Əli oğlunun adına olan JN-0057 nömrəli, 10307038 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Seyidov Mircəfər Mirfətulla oğlunun adına olan JN-611$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

## Karate üzrə yığma komandamız Bakıda keçirilən turnirin üçüncüsü olub

Sərhədçi Olimpiya İdman Mərkəzində Azərbaycan Karate Federasiyasının dəstəyi, "Badamlı Karate Klubu"nun təşkilatçılığı ilə 5 oktyabr – Beynəlxalq Müəllimlər Gününə həsr edilmiş turnir keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, yarışda 30 klubdan 400-ə yaxın karateçi mübarizə aparıb.







İki gün davam edən turnirdə Naxçıvan karateçiləri 9-u qızıl, 6-sı gümüş, 9-u bürünc olmaqla, ümumilikdə, 24 medal qazanıblar. Bu göstərici ilə "Naxçıvan" komandası ümumi sıralamada üçüncü yerin sahibi kimi pul mükafatına layiq görülüb.

Fərdi nəticələrə gəlincə Canər Abbaszadə, Püstə Məmmədli, Rəvan Vəlisoy, Əli Bağırlı, Uğur Məmmədli, Xədicə Bayramova, Aysu Abbaslı, Fatimə Novruzlu və Həsən İbrahimli müvafiq kateqoriyalar üzrə qızıl medala sahib çıxıblar. Digər təmsilçilərimiz müxtəlif əyarlı medallar əldə ediblər.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Nail Əsgərov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 308